Co-funded
by the European Union

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Co-funded and implemented
by the Council of Europe

**Aİ/AŞ-nın Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı III (PGG III)**

**Layihə: "Azərbaycanda mediasiyanın təşviqi"**

# Azərbaycanda mediasiya sistemində məlumatların toplanmasının və rəqəmsallaşdırmanın **QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR HESABAT**

**8 sentyabr 2023-cü il**

CEPEJ-nin beynəlxalq ekspertləri
Rimantas Simaitis və Konstantin Adi Qavrila
tərəfindən hazırlanmışdır

Azərbaycanda mediasiya sistemində məlumatların toplanmasının və rəqəmsallaşdırmanın qiymətləndirilməsinə dair hesabat 19-21 iyun 2023-cü il tarixlərində CEPEJ-in beynəlxalq ekspertlərinin və əməkdaşlarının iştirakı ilə Azərbaycana (Bakı və Sumqayıt) həyata keçirilmiş “Azərbaycanda mediasiya sisteminin rəqəmsallaşdırılması” missiyasının yekunları əsasında hazırlanıb. Missiya çərçivəsində məsləhətçilər məlumatları toplamaq üçün maraqlı tərəflərlə görüşlər keçirmiş və milli tərəfdaşları müvafiq CEPEJ alətləri haqqında məlumatlandırmaq üçün təqdimatlar etmişlər.

Bu hesabat Avropa İttifaqı və Avropa Şurası tərəfindən birgə maliyyələşdirilən layihənin bir hissəsi kimi hazırlanıb. Burada ifadə olunan fikirlər heç bir halda tərəflərdən hər hansı birinin rəsmi rəyini əks etdirən fikirlər kimi qəbul edilməməlidir.

## MÜNDƏRİCAT


Abreviaturalar ........ 2

1. GİRİŞ ........ 3
   - 1.1. Ümumi məlumat ........ 3
   - 1.2. Əhatə dairəsi ........ 3
   - 1.3. Metodologiya ........ 3
2. AZƏRBAYCANDA MEDİASİYA SİSTEMİNİN ÜMUMİ İCMALI ........ 4
   - 2.1. Mediasiya üçün hüquqi baza ........ 4
   - 2.2. Əsas maraqlı tərəflər və vəzifələr ........ 5
   - 2.3. Rəqəmsal infrastruktur və İT imkanları ........ 6
   - 2.4. Rəqəmsallaşdırma üçün güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələr ........ 7
3. MEDİASİYA SİSTEMİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ........ 11
   - 3.1. Monitorinq və qiymətləndirmənin əhəmiyyəti ........ 11
   - 3.2. CEPEJ alətləri və digər qabaqcıl beynəlxalq təcrübələr ........ 12
   - 3.3. Mediasiya sistemi üçün əsas fəaliyyət göstəriciləri ........ 13
   - 3.4. Məlumatların toplanması, təhlili və hesabatlılıq üzrə yerli təcrübələr ........ 16
4. MEDİASİYA İŞLƏRİNİN İDARƏ EDİLMƏSİ SİSTEMİ ........ 20
   - 4.1. İşlərin idarə edilməsi sisteminin əhəmiyyəti ........ 20
   - 4.2. İşlərin idarə edilməsi sisteminin xüsusiyyətləri və funksional imkanları ........ 21
   - 4.3. Mediasiya üçün işlərin idarə edilməsi sisteminin tətbiqi ........ 22
   - 4.4. Azərbaycanda işlərin idarə edilməsinin hazırkı sistemi ........ 23
     - 4.4.1. Birinci həll yolu. İnternet saytı və məcburi ilkin mediasiya sessiyası üçün onlayn modul ........ 23
     - 4.4.2. İkinci həll yolu. Məcburi ilkin sessiya üçün onlayn modulun ləğvi və Google cədvəlləri vasitəsilə məlumatların monitorinqinə keçid ........ 24
     - 4.4.3. Mediasiya Şurası yeni İİS hazırlayır ........ 25
5. MƏLUMATLARIN TOPLANMASININ VƏ MEDİASİYA SİSTEMİNİN RƏQƏMSALLAŞDIRILMASININ DAHA DA TƏKMİLLƏŞDİRİLMƏSİ ÜÇÜN TÖVSİYƏLƏR ........ 29
   - 5.1. Mediasiya üçün hüquqi bazanın təkmilləşdirilməsi ........ 29
   - 5.2. Monitorinq, qiymətləndirmə və hesabatlılıq təcrübələrinin təkmilləşdirilməsi ........ 30
   - 5.3. İşlərin idarə edilməsi sisteminin gücləndirilməsi ........ 30
   - 5.4. Rəqəmsal infrastrukturun təkmilləşdirilməsi və Mediasiya Şurasına və mediasiya təşkilatlarına dəstək ........ 31
   - 5.5. Fərdi mediatorların və mediasiya təşkilatlarının əməkdaşlarının davamlı peşəkar inkişafı32
   - 5.6. Onlayn mediasiya xidmətlərinin təşviqi və genişləndirilməsi ........ 32

BİBLİOQRAFİYA ........ 33

ƏLAVƏ I: "Azərbaycanda mediasiya sisteminin rəqəmsallaşdırılması" üzrə 19-21 iyun 2023-cü ildə həyata keçirilmiş missiyanın iştirakçıları və gündəliyi ........ 34

## Abreviaturalar

| | |
|---|---|
| MAH | Mübahisələrin alternativ həlli |
| ƏA | Ədliyyə Akademiyası |
| ASAN | Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi |
| BA | Biznes-analitika |
| AŞ | Avropa Şurası |
| CEPEJ | Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası |
| DPİ | Davamlı peşəkar inkişaf |
| İİS | İşlərin idarə edilməsi sistemi |
| MH | Mübahisələrin həlli |
| Aİ | Avropa İttifaqı |
| KPI | Əsas fəaliyyət göstəriciləri |
| MŞ | Mediasiya Şurası |
| ƏN | Ədliyyə Nazirliyi |
| SWOT | Güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələr |
| TT | Təlimçilərin təlimi |

# 1. GİRİŞ

## 1.1. Ümumi məlumat

“Azərbaycanda mediasiyanın təşviqi” layihəsi Avropa İttifaqı və Avropa Şurası tərəfindən maliyyələşdirilir və Avropa Şurası tərəfindən Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı III (2023-2027) çərçivəsində həyata keçirilir. O, Azərbaycanda mediasiya xidmətlərinin əlçatanlığını və keyfiyyətini artırmaqla, mediatorların bacarıqlarını xüsusilə təlimlər vasitəsilə daha da gücləndirməklə və ədliyyə sektorunun peşəkarları və vətəndaşlar arasında mediasiya haqqında məlumatlılığı artırmaqla mediasiya üçün müraciətlərlə bağlı vəziyyətin yaxşılaşdırılmasına yönəlib. Layihə Avropa Şurasının alətlərinə və standartlarına, mediasiya üzrə CEPEJ alətlərinə və müvafiq qabaqcıl Avropa təcrübələrinə əsaslanır. Bu fəaliyyət “Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nda və “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanında yer alan mübahisələrin alternativ həlli ilə bağlı mühüm məhkəmə islahatlarının həyata keçirilməsinin dəstəklənməsinə yönəlib”.

## 1.2. Əhatə dairəsi

Hesabatda Azərbaycanda mediasiya sisteminin rəqəmsallaşdırılmasının gələcək inkişafı üzrə qənaətlər və tövsiyələr öz əksini tapıb. Buraya aşağıdakılar haqqında məlumatlar daxildir: işlərin idarə edilməsi sistemi (İİS), mediasiya sisteminin, mediasiya təşkilatlarının və fərdi mediatorların işinin nəticələrinin monitorinqi və qiymətləndirilməsi, məlumatların toplanması və təhlili (statistika, BA modulları), onlayn mediasiyanın inkişafı.

## 1.3. Metodologiya

Hesabatın məzmunu 19-21 iyun 2023-cü il tarixlərində CEPEJ-in beynəlxalq ekspertlərinin və əməkdaşlarının iştirakı ilə Azərbaycana (Bakı və Sumqayıt) həyata keçirilmiş “Azərbaycanda mediasiya sisteminin rəqəmsallaşdırılması” missiyası zamanı müəlliflərin apardığı araşdırmalara və gəldiyi nəticələrə əsaslanır (bax Əlavə I).

# 2. AZƏRBAYCANDA MEDİASİYA SİSTEMİNİN ÜMUMİ İCMALI

Mediasiya tərəflərin öz mübahisələrini neytral üçüncü tərəfin köməyi ilə həll etməyə çalışdıqları mübahisələrin alternativ həlli prosesidir. O həm özəl tərəflər, həm də hökumətlər üçün çoxsaylı üstünlüklər təqdim edir. Azərbaycanda 2019-cu ildən əvvəl mediasiya geniş tətbiq olunmamışdı, hərçənd ki, buna imkan verən hüquq normaları 1999-cu ildən mövcud idi.

Azərbaycan Respublikasının Prezidenti “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin başlıca istiqamətləri”nin təsdiqi haqqında 6 dekabr 2016-cı il tarixli Fərmanında mediasiyanın biznes subyektləri üçün əhəmiyyətini təsdiq edərək, ölkədə mediasiyanın inkişaf etdirilməsi məqsədini qarşıya qoymuşdur. Yol Xəritəsinin 1.8-ci prioriteti çərçivəsində aşağıdakı gözlənilən nəticələr nəzərdə tutulmuşdur: "Mediasiya haqqında" qanun layihəsinin hazırlanması, Mediasiya Şurasının yaradılması və kiçik və orta biznes subyektlərində mübahisələrin məhkəməyəqədər həlli göstəricilərinin yaxşılaşdırılması.

Birinci məqsədə 2019-cu ilin martında parlament tərəfindən "Mediasiya haqqında" yeni Qanununun təsdiqləməsi ilə nail olunmuşdur. Qanunda müəyyən kateqoriyalara aid mübahisələr üzrə məcburi ilkin mediasiya sessiyalarının keçirilməsi, ölkə üzrə mediasiya xidməti göstərən təşkilatlar və mediatorlar üçün təlim tələbləri kimi innovativ müddəalar nəzərdə tutulur. Həmçinin bu Qanunla mediasiya siyasətinin həyata keçirilməsinə və mediasiya reyestrinin aparılmasına cavabdeh olan Mediasiya Şurası yaradılmışdır. Qanunun qəbul edilməsində məqsəd Azərbaycanda mübahisələrin həlli mədəniyyətinin transformasiyası və ədalət mühakiməsinə çıxışın yaxşılaşdırılması olmuşdur.

Yuxarıda təsvir olunan şəraitdə gənc mediasiya sisteminin effektivliyi yerli maraqlı tərəflər tərəfindən qiymətləndirilir. 19-20 iyun 2023-cü il tarixlərində sahə missiyası zamanı keçirilmiş görüşlərin gedişində CEPEJ ekspertləri tərəfindən alınmış məlumatlar göstərir ki, xüsusilə məlumatların toplanması metodları və mediasiya siyasətinin həyata keçirilməsinin effektivliyini əks etdirə biləcək statistik məlumatlarla bağlı təkmilləşdirmə tələb edən sahələr var. Bununla əlaqədar olaraq mediasiya sisteminin rəqəmsallaşdırılmasına üstünlük verilməlidir. Mərkəzləşdirilmiş qaydada mötəbər məlumatların monitorinqi və statistik məlumatların avtomatik konsolidasiyası imkanlarını özündə ehtiva edən kompleks İT sistemi mediasiyanın hüquqi və institusional bazasının tətbiqinin effektivliyinin qiymətləndirilməsi üçün mühüm komponentdir.

## 2.1. Mediasiya üçün hüquqi baza

2019-cu ildə qəbul edilmiş Azərbaycanın "Mediasiya haqqında" Qanunu ölkədə mübahisələrin həlli mədəniyyətini yenidən formalaşdırmaq və ədalət mühakiməsinə çıxışı yaxşılaşdırmaq məqsədi daşıyır. Qanun ilkin mediasiya sessiyasına əsaslanan məhkəməyəqədər həll modeli kimi bir sıra innovativ müddəaları nəzərdə tutur və mediasiyanın effektiv həyata keçirilməsi üçün baza təşkil edir.

Yuxarıda qeyd edildiyi kimi, əsas müddəalardan biri ailə, kommersiya və əmək mübahisələri kimi müəyyən mübahisələr üzrə məcburi ilkin mediasiya sessiyalarının tətbiqini nəzərdə tutur. İtaliyada istifadə edilən uğurlu modelə uyğun olaraq, iddiaçılar işi məhkəməyə verməzdən əvvəl mediasiya sessiyasında iştirak etməlidirlər. Bu tələb mübahisələrin həllinin əsas metodu kimi mediasiyanı təşviq edir və tərəfləri barışığa əsaslanan həll yollarını axtarmağa sövq edir. Bununla belə, Azərbaycandakı model cavabdeh tərəflərin belə bir sessiyada iştirak etmək istəyi ilə bağlı daha az dərəcədə məcburi göstəriş xarakteri daşıyır ki, bu da effektivliyi olmayan və müvafiq məlumatlara ciddi ehtiyacı olmayan formal mexanizmin yaradılması riskini doğurur.

Qanun həmçinin bütün Azərbaycan ərazisində mediasiya xidmətlərinə əlçatanlığı təmin edən mediasiya təşkilatlarının yaradılmasını nəzərdə tutur. O, bu sahədə peşəkarlığın və səriştəliliyin artırılmasına yönələn mediatorlar üçün ilkin hazırlıq və ixtisasartırma meyarlarını müəyyən edir.

Mediasiya Şurası haqqında müddəa qanunun digər bir mühüm aspektidir. Mediasiya Şurası mediasiya siyasətinin həyata keçirilməsinə, mediasiya reyestrinin aparılmasına, nümunəvi sənədlərin və formaların hazırlanmasına, statistik məlumatların toplanmasına və təqdim edilməsinə, həmçinin mediasiya təcrübəsinə dair təlimatların verilməsinə cavabdehdir. Bu hesabatın əhatə dairəsi ilə əlaqədar, Mediasiya Şurasının funksiyalarından biri də[1] hər rüb mediasiya fəaliyyəti haqqında informasiya və statistik xarakterli hesabat dərc etməkdir.

Mediasiyanı stimullaşdırmaq məqsədilə Qanun "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanması kimi tənzimləyici tədbirləri özündə ehtiva edir. O həmçinin mediasiya nəticəsində əldə edilmiş barışıq sazişlərinin icrasının təmini məqsədilə mediasiyadan sonrakı prosedurlarda məhkəmələrin iştirakı üçün aydın proseduru nəzərdə tutur.

Ümumən, Azərbaycanda "Mediasiya haqqında" Qanun mübahisələrin ədalətli, etibarlı və müştərək həlli prosesini təşviq etməyə yönələn hərtərəfli səyləri özündə əks etdirir. Qanunun və konkret məhkəməyəqədər həll modelinin effektivliyi hələ də qiymətləndirilməkdə olsa da, Mediasiya Şurasının yaradılması, məcburi mediasiya sessiyalarının tətbiqi və peşəkar mediatorların təşviqi ölkədə güclü mediasiya sisteminin inkişafına töhfə verməlidir.

## 2.2. Əsas maraqlı tərəflər və vəzifələr

Maraqlı tərəflərin və onların vəzifələrinin müəyyən edilməsinin məqsədi mediasiya ekosistemini hərtərəfli dərk etməkdir. Bu dərketmə sistemin daha da yaxşılaşdırılaraq rəqəmsallaşdırılması məqsədinə nail olmaq üçün dəyərlidir. Bundan əlavə, maraqlı tərəflərin sxeminin tərtib edilməsi müxtəlif subyektlər arasında dinamikanı və əlaqələri müəyyən etməyə kömək edir, mövcud rəqəmsallaşdırma və koordinasiya səylərini önə çəkir, kəmiyyət və keyfiyyət məlumatlarının toplanması metodlarını təkmilləşdirmək imkanlarını üzə çıxarır və nəhayət, müvafiq qurumların, məsələn, Ədliyyə Nazirliyi, Mediasiya Şurası və mediasiya təşkilatlarının monitorinq bacarıqlarını təkmilləşdirir.

Maraqlı tərəflərin və onların rollarının sxemi aşağıda əlavə olunub, sxemdə daha çox məlumatların əldə olunmasını tələb edən dinamika qırmızı xətlərlə əks olunub ki, bu da dolayısı ilə rəqəmsallaşdırma tələblərini önə çəkir. Nümunələr sırasına məcburi ilkin sessiyada iştirak, istifadəçilərin və vəkillərin yanaşmaları və mediasiya təcrübəsinin kəmiyyət/keyfiyyət aspektləri daxildir.

[1] Bax: Azərbaycan Milli Məclisi tərəfindən 29 mart 2019-cu il tarixində qəbul edilmiş 1555-VQ nömrəli "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 20.1.15-ci maddəsi: [Mediasiya Şurası] "mediasiya fəaliyyəti haqqında informasiya və statistik xarakterli hesabatı rübdə bir dəfə ictimaiyyətə açıqlayır", Azərbaycan dilində burada mövcuddur: https://e-qanun.az/framework/41828, məlumatın götürüldüyü tarix: 5 iyul 2023-cü il.




*Şəkil 1. Maraqlı tərəflərin və rolların sxemi (məlumatlara ehtiyacın olması qırmızı xətlərlə əks olunub)*

## 2.3. Rəqəmsal infrastruktur və İT imkanları

Azərbaycanın mediasiya sisteminin rəqəmsal infrastrukturu dedikdə rəqəmsal xidmətlər və texnologiyaların fəaliyyət göstərməsinə imkan yaradan çərçivə nəzərdə tutulur. Buraya şəbəkələr, serverlər, məlumat bazaları və kommunikasiya sistemləri daxildir. İdeal halda, Azərbaycanın mediasiya sistemi mediasiya ilə bağlı məlumatların və sənədlərin saxlanması, idarə edilməsi və ötürülməsini asanlaşdırmağa yönələn təhlükəsiz və etibarlı rəqəmsal infrastruktura əsaslanmalıdır.

Azərbaycanda mediasiya sisteminin İT (informasiya texnologiyaları) imkanları mediasiya prosesinin müxtəlif aspektlərini dəstəkləyən alətləri, sistemləri və proqram təminatını əhatə edir. Buraya effektiv sənəd dövriyyəsi və işlərin idarə edilməsi, mediasiya təşkilatlarının və mediatorların baxacağı işlərin təqvim üzrə siyahıları, mediasiya xidməti göstərənlər üçün müştəri idarəetmə proqramı, real vaxt rejimində avtomatik hesabatlar, onlayn mediasiya platformaları, məlumatların təhlükəsizliyi və məxfiliyi üzrə tədbirlər aid edilə bilər.

Mediasiya Şurasının istifadə etdiyi İT alətləri hazırda məhduddur. O, veb-səhifəni və mediasiya reyestrinin rəqəmsal məlumat bazasını saxlayır. Əvvəllər məlumatların təqdim edilməsi üzrə İT sistemi var idi, amma texniki nasazlıqlar və bu İT sisteminin tərtibçisi ilə fikir ayrılıqları səbəbindən onu söndürmək lazım gəldi. Hazırda məlumatların toplanması fəaliyyəti Google cədvəlləri tətbiqindən istifadə etməklə həyata keçirilir. Ədliyyə Nazirliyi məhkəmələrin, notariusların və bəzi digər hüquqşünasların işinin rəqəmsallaşdırılması ilə məşğul olan İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsinin yardımından bəhrələnir.

Mediasiya Şurası İşlərin idarə edilməsi sistemini hazırlasa da, ekspertlərə bu sistem üçün texniki şərtlər və ya hər hansı yazılı spesifikasiya təqdim edilmədi. Mediasiya Şurasının nümayəndələri ilə görüşdə yalnız platformaya çıxışın və hazırlanmaqda olan mediasiya elektron kabinetinin nümayişi təklif olundu. Buna görə də, bu hesabata daxil edilmiş tövsiyələr 19-21 iyun 2023-cü il tarixlərində missiya zamanı toplanmış məhdud məlumatlara və AŞ komandası tərəfindən ekspertlərə təqdim edilmiş informasiyalara (məsələn, Azərbaycanın

"Mediasiya haqqında" Qanununun ingilis dilinə tərcüməsinin yenilənmiş versiyasına) əsaslanır.

Ekspertlər narahatdırlar ki, mediasiya təşkilatları, onların işlərini aparanlar, işçi heyətinin digər üzvləri və mediatorların özləri hazırlanmaqda olan İşlərin idarə edilməsi sistemini başa düşmək və səmərəli istifadə etmək üçün İT bacarıqlarına malik olmaya bilərlər. Eynilə, ekspertlər həm də ümid edə bilərlər ki, sistem ondan istifadə edəcəyi gözlənilən tərəflərin, vəkillərin, mediatorların və mediasiya sahəsindəki digər maraqlı tərəflərin İT bilikləri səviyyəsinə uyğun şəkildə işlənib hazırlanacaq. Əks təqdirdə onun tətbiqinə başlamazdan əvvəl hərtərəfli məlumatlandırma və təlim proqramları həyata keçirilməlidir.

Ekspertlər mediatorların, istifadəçilərin və vəkillərin texnologiyalardan istifadəyə, xüsusən də mövcud elektron imza vasitələrinin köməyi ilə onlardan istifadə etməyə müəyyən dərəcədə istəksiz olduğunu qeyd ediblər. Ədliyyə Nazirliyinin nümayəndələri mediasiya sənədlərinin elektron üsulla imzalana biləcəyini təsdiqləsələr də, təcrübədə işlər əsasən kağız üzərində aparılır.

Nəhayət, ekspertlər belə bir riski qeyd etdilər ki, hazırkı kağız sənəd dövriyyəsi təcrübəsi işlərin idarə edilməsinin yeni sisteminə sirayət edə bilər, halbuki həmin sistem sənədlərin rəqəmsal dövriyyəsinə və saxlanmasına yönəlməli, iş prosesinin avtomatlaşdırılmasına, işlərin səmərəli monitorinqinə, təyinatına və izlənilməsinə, hərtərəfli hesabatlılıq və analitikaya, fərdiləşdirilə bilən şablonlara və formalara əsaslanmalı və digər sistemlərlə, məsələn, Azərbaycandakı elektron məhkəmə sistemi platforması ilə inteqrasiya edilməlidir.

Müəyyən subyektlərin texnoloji savadlılığının aşağı səviyyədə olması riskini aradan qaldırmaq üçün yeni sistem, şübhəsiz ki, istifadəçi üçün rahat, intuitiv və asanlıqla istifadə edilə və ya öyrənilə bilən olmalıdır.

## 2.4. Rəqəmsallaşdırma üçün güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələr

Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılmasının güclü tərəfləri, zəif tərəfləri, imkanları və təhlükələrinin təhlili (SWOT təhlili) aşağıdakı səbəblərə görə vacibdir:

- *Strateji planlaşdırma*: Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılması üzrə SWOT təhlilinin aparılması onun güclü tərəfləri, zəif tərəfləri, imkanları və təhlükələrinin hərtərəfli qiymətləndirilməsinə yol açır. Bu təhlil Mediasiya Şurası və digər maraqlı tərəflər üçün rəqəmsallaşdırmanın cari vəziyyətini müəyyən etməyə, ona təsir edən daxili və xarici amilləri başa düşməyə və gələcək təşəbbüslər üçün yol xəritəsi hazırlamağa imkan verən strateji planlaşdırma aləti rolunu oynayır. O, qarşıya aydın məqsədlər qoymağa, fəaliyyətləri prioritetləşdirməyə və resursları səmərəli şəkildə bölüşdürməyə kömək edir.

- *Risklərin qiymətləndirilməsi və azaldılması*: Rəqəmsallaşdırma prosesi ilə bağlı SWOT təhlili istifadəçinin sistemdən imtina etməsi və ya yanlış məlumatların toplanması ilə nəticələnə bilən potensial riskləri və problemləri müəyyən etməyə kömək edir. Zəif tərəfləri və təhlükələri araşdırmaqla, Ədliyyə Nazirliyi, Mediasiya Şurası və mediasiya sahəsindəki digər maraqlı tərəflər riskləri fəal şəkildə qiymətləndirə və onların aradan qaldırılması və təsirlərinin azaldılması üçün strategiyalar hazırlaya bilərlər. Bu, texniki infrastruktur məhdudiyyətləri, məlumat təhlükəsizliyi riskləri və ya dəyişikliyə qarşı müqavimət kimi maneələri qabaqcadan görməyə və onların təsirini minimuma endirmək üçün müvafiq tədbirlər hazırlamağa imkan verir. Bu risk qiymətləndirilməsi

rəqəmsallaşdırmaya daha rahat keçidi təmin edir və təşəbbüsün ümumi uğur imkanlarını artırır.

- *İmkanlara diqqət yetirilməsi*: SWOT təhlili Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılmasını genişləndirmək üçün istifadə edilə bilən imkanları müəyyən etməyə kömək edir. Güclü tərəfləri və xarici imkanları dərk edərək, Mediasiya Şurası və mediasiya sahəsindəki digər maraqlı tərəflər innovativ yanaşmaları tədqiq edə, inkişaf etməkdə olan texnologiyalardan faydalana və rəqəmsallaşdırmanın faydalarını artırmaq üçün əlverişli şərtlərdən istifadə edə bilərlər (məsələn, elektron imza). Bu təhlil onlara təkmilləşdirilməli sahələri müəyyən etməyə, investisiyaları prioritetləşdirməyə və mediasiyaya dair hüquqi baza çərçivəsində səmərəliliyi, əlçatanlığı və effektivliyi artırmaq üçün mövcud imkanlardan istifadə etməyə, xüsusən də məhkəməyəqədər həll modelində müvafiq monitorinq və qiymətləndirməyə ehtiyac olduğu vəziyyətlərdə belə imkanlardan yararlanmağa imkan verir.

Ekspertlərin mövcud rəqəmsal infrastruktur və İT imkanları ilə bağlı məhdud məlumata malik olmasına baxmayaraq, aşağıdakı təhlil milli tərəfdaşların diqqətinə çatdırılır və ola bilsin ki, nəticə etibarı ilə sistemin yenidən nəzərdən keçirilməsi/yenilənməsi üçün təklif olunur.

Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılmasının **güclü tərəfləri**:

- SƏMƏRƏLİLİYİN ARTIRILMASI: Rəqəmsallaşdırma Mediasiya Şurasının, mediasiya təşkilatlarının, mediatorların və ən əsası vəkillərin və istifadəçilərin icra etdiyi inzibati prosedurları sadələşdirə bilər; buraya mediasiya prosesi sənədlərinin elektron üsulla idarə edilməsi və işin izlənilməsi daxildir ki, bu da mediasya ekosistemində səmərəliliyin artmasına gətirib çıxarır.
- ƏLÇATANLIĞIN ARTIRILMASI: İşlərin idarə edilməsinin milli sistemi (milli İİS), mediasiya xidməti göstərənlərin daxili istifadəsi üçün nəzərdə tutulan, amma milli İİS ilə əlaqəli olan analoji İİS-lər və digər rəqəmsal platformalar Bakıda və regionlarda mediasiya xidmətlərinə çıxışı asanlaşdıra bilər ki, bu da həmin sistemi müxtəlif məkanlardakı tərəflər üçün daha əlçatan edə və mediasiyanın başa düşülməsi və istifadəsi üçün maneələri azalda bilər.
- MƏLUMATLARIN TƏHLÜKƏSİZ İDARƏ EDİLMƏSİ: Azərbaycanın mediasiya ekosisteminin rəqəmsallaşdırılması çərçivəsində mediasiya ilə bağlı həssas məlumatları qorumaq, onların konfidensiallığını və bütövlüyünü təmin etmək üçün etibarlı məlumat təhlükəsizliyi tədbirlərindən istifadə edilə bilər. Burada tərəflərin fərdi məlumatlarını misal göstərmək olar, belə ki, onlar mediasiya xidməti göstərən subyektlərdən kənar qurumlar üçün, hətta Mediasiya Şurası üçün də əlçatan olmamalıdır.
- MƏRKƏZLƏŞDİRİLMİŞ MƏLUMATLAR: Rəqəmsallaşdırma statistik məlumatların avtomatik konsolidasiyasına və mediasiya ilə bağlı məlumatların mərkəzləşdirilməsinə imkan verir, siyasətin qiymətləndirilməsi, monitorinq aparılması, hesabatlılıq və qərarların qəbulu məqsədləri üçün məlumatlara çıxışı, onların götürülməsini və təhlilini asanlaşdırır.
- AVTOMATLAŞDIRMA VƏ İŞ PROSESİ: Rəqəmsallaşdırma mediasiya sessiyalarının planlaşdırılması, tərəflərə bildirişlər göndərilməsi və Mediasiya Şurası tərəfindən təsdiq edilmiş standart mediasiya formaları əsasında sənədlərin yaradılması kimi müəyyən tapşırıqları avtomatlaşdıra, mediasiya prosesini sadələşdirə və əllə işi azalda bilər. Ən əsası odur ki, statistik hesabatların mediasiya xidməti göstərənlər tərəfindən

“əllə” tərtib olunub təqdim edilməsinə ehtiyac qalmayacaq, çünki sistem artıq bütün məlumatlara malik olacaq və hesabat prosesi tam avtomatlaşdırılmış olacaq.

Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılmasının **zəif tərəfləri**:

- RƏQƏMSAL UÇURUM/BƏRABƏRSİZLİK: İstifadəçilər arasında texnologiyalara məhdud çıxış imkanları və ya qeyri-adekvat rəqəmsal savadlılıq onların mediasiya xidmətlərinə çıxışına mane ola bilər. Eynilə, mediatorların texnologiyaları anlamaq və onlarla işləmək imkanlarının məhdud olması onların rəqəmsal sistemlərdən istifadə imkanlarına maneə yarada bilər.
- TEXNİKİ İNFRASTRUKTURUN OLMAMASI: Bakıdan kənarda bəzi regionlarda qeyri-adekvat olan və ya etibarlı olmayan internet bağlantısı və infrastruktur İşlərin idarə edilməsi sisteminin rəvan işləməsinə mane ola bilər.
- MƏLUMATLARIN TƏHLÜKƏSİZLİYİ İLƏ BAĞLI RİSKLƏR: Rəqəmsal sistemlərə güvənmə potensial olaraq məlumatların sızması və ya kiberhücumların baş verməsi risklərini doğurur ki, bu da həssas məlumatları qorumaq üçün etibarlı təhlükəsizlik tədbirləri tələb edir. Bu cür risklər fərdi məlumatların "təhlükəsiz mediasiya məkanından" kənarda paylaşılması riskinin hüdudlarını aşır. Onlar tərəflər arasında məxfiliyin pozulması nəticəsində iş üzrə əhəmiyyətli zərərlərə səbəb ola bilər.
- TƏLİM VƏ TƏTBİQETMƏ İLƏ BAĞLI ÇƏTİNLİKLƏR: Mediatorlar, istifadəçilər, vəkillər və mediasiya sahəsindəki digər maraqlı tərəflər üçün təlim keçilməsini və onların rəqəmsal alətlər və platformalardan rahat istifadə etməsini təmin etmək təlimlərə və davamlı dəstək proqramlarına vəsait qoyuluşu tələb edə bilər.

Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılması ilə bağlı **imkanlar**:

- ƏHATƏ DAİRƏSİNİN GENİŞLƏNMƏSİ: Rəqəmsallaşdırma mediasiya xidmətlərinin əhatə dairəsini genişləndirərək paytaxtdan kənardakı ucqar əraziləri əhatə edə bilər ki, bu da əlçatanlığı artırır və fiziki iştirakın çətin ola biləcəyi hallarda onlayn mediasiya imkanları təqdim edir.
- İQTİSADİ SƏMƏRƏLİLİK: Fiziki və ya onlayn mediasiya mexanizmləri üçün rəqəmsal iş idarəetmə platformaları şəxsən (fiziki olaraq) müraciət etmə, səfər etmə, məkan icarəsi və sənədləşmə işləri ilə bağlı xərcləri azalda bilər ki, bu da mediasiyanı və mediasiyaya müraciəti tərəflər üçün daha sərfəli edir.
- MƏLUMATLARIN ANALİTİKASI: İşin idarə edilməsinin kompleks sistemi mediasiya işləri üzrə məlumatların toplanmasına və təhlilinə imkan yarada bilər ki, bu da Azərbaycanın mediasiyaya dair qanunvericilik bazasının təkmilləşdirilməsi, tendensiyaların müəyyən edilməsi və əsas fəaliyyət göstəricilərinin ölçülməsi üçün dəyərli informasiyaları təmin edə bilər.
- E-MƏHKƏMƏ SİSTEMİ İLƏ İNTEQRASİYA: Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılması onun e-məhkəmə sistemi ilə inteqrasiyası imkanlarına yol aça bilər ki, bu da mediasiya və məhkəmə prosesləri arasında məlumatların fasiləsiz mübadiləsini və koordinasiyasını asanlaşdırmış olar. Bu inteqrasiya məhkəməyəqədər həll modelinin effektivliyi və mediasiya üçün müraciət etmiş tərəflərin və cavabdeh tərəflərin prosesdə iştirak etməməsinin səbəbləri, vəkillərdən məsləhət alma və mümkün sonrakı stimullar və ya sanksiyalar haqqında anlayışı artıra bilər.
- ƏMƏKDAŞLIQ VƏ BİLGİLƏRİN mübadiləsi: Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılması mediatorlar, mediasiya təşkilatları, Mediasiya Şurası, Vəkillər Kollegiyası və Ədliyyə Nazirliyi arasında əməkdaşlığa imkan verir. Həmçinin

beynəlxalq əməkdaşlıq da qabaqcıl təcrübələri bölüşmək, resurslardan istifadə etmək, peşəkar inkişafa və davamlı öyrənməyə kömək etmək üçün fürsətdir.

Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılması ilə bağlı **təhlükələr**:

- DƏYİŞİKLİYƏ MƏDƏNİ MÜQAVİMƏT: Mediasiya sahəsindəki maraqlı tərəflər istər işlərin idarə edilməsi sistemləri, istərsə də onlayn mediasiya alətləri olsun, rəqəmsal platformaların qəbuluna müqavimət göstərə bilərlər. Bunun səbəbi etibarlılıq, təhlükəsizlik mülahizələrindən və ya yeni texnologiyalarla tanış olmamaqdan irəli gələn narahatlıqlar ola bilər ki, bu da potensial olaraq dəyişikliyin geniş tətbiqinə mane ola bilər.
- TEXNOLOGİYALARIN KÖHNƏLMƏSİ: Sürətli texnoloji irəliləyişlər köhnəlmənin qarşısını almaq və inkişaf edən standartlara uyğunluğu təmin etmək üçün rəqəmsal sistemlərin müntəzəm yenilənməsinə və texniki xidmətə ehtiyacın yaranması ilə nəticələnə bilər. Bu cür yeniləmələr və texniki qulluq səyləri Mediasiya Şurası, mediasiya təşkilatları və digər maraqlı tərəflərin dayanıqlı həllər tələb edən xərcləri çəkməsi ilə müşayiət olunur.
- QANUNVERİCİLİK VƏ NORMATİV HÜQUQİ AKTLARLA BAĞLI PROBLEMLƏR: Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılması məlumatların qorunması, məxfilik, elektron imzalar və elektron şəkildə yaradılmış mediasiya sənədlərinin qəbulunun mümkünlüyü məsələlərinə dair qanunvericilik və normativ hüquqi aktlarla bağlı suallar yarada bilər.
- İNSANLAR ARASINDA TƏMASIN İTİRİLMƏSİ: Mediasyanın rəqəmsallaşması həm də üz-üzə qarşılıqlı əlaqənin azalması ilə nəticələnə bilər ki, bu da mediasiya prosesində insanlar arasında əlaqə və etimad yaranmasına potensial təsir göstərə bilər.
- QEYRİ-BƏRABƏR ÇIXIŞ İMKANI: Cəmiyyətin müxtəlif təbəqələri, o cümlədən mediasiya icması arasında rəqəmsal resurslara və texnologiyalara qeyri-bərabər çıxış imkanı mövcud bərabərsizlikləri gücləndirə və rəqəmsal mediasiya təşəbbüslərinin inklüzivliyini məhdudlaşdıra bilər.
- VƏSAİT VƏ RESURSLARIN YETƏRLİLİYİ. Mərkəzləşdirilmiş mediasiya mühitində İT sisteminin/İİS-in formalaşdırılması və saxlanması üçün kifayət qədər vəsaitin və resursların olmaması rəqəmsallaşdırma prosesində ciddi maneələr yarada bilər.

Xatırlatmaq vacibdir ki, bu güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələr Azərbaycanın mediasiya ekosisteminin rəqəmsallaşdırılmasına aid ümumi mülahizələrdir və hesabatın hazırlanması zamanı ekspertlərə təqdim edilmiş məlumatlara əsaslanır.

Bu SWOT təhlili başlanğıc nöqtəsi olsa da, Azərbaycan kontekstinə xas olan əlavə hallar hərtərəfli təhlil üçün nəzərə alınmalı olan digər amillərin də meydana çıxmasına gətirib çıxara bilər.

# 3. MEDİASİYA SİSTEMİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Bu fəsil mediasiya sisteminin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsinə həsr edilmişdir.

Mediasiya ilə bağlı məlumatların toplanması və təhlili bir çox subyekt tərəfindən həyata keçirilir. Mikrosəviyyədə bunu mediatorlar və mediasiya təşkilatları həyata keçirir. Ümummilli makrosəviyyədə isə bu fəaliyyətdə Mediasiya Şurası, Ədliyyə Nazirliyi və digər qurumlar iştirak edə bilər. Müvafiq ardıcıllıq, etibarlılıq və şəffaflıq səviyyəsinə nail olmaq məqsədi daşıyan məlumatların təqdim edilməsi və qiymətləndirilməsi zamanı bəzi əsas qaydalara əməl edilməli və hədəf müqayisə edilə və uzlaşa bilən məlumat topluları və konsepsiyaları ilə işləməkdən ibarət olmalıdır.

4.1-ci bölmədə mediasiya sisteminin monitorinqi və qiymətləndirilməsinin ümumi əhəmiyyətindən bəhs edilir.

Aşağıdakı 4.2-4.4-cü bölmələrdə müvafiq CEPEJ alətləri, qabaqcıl beynəlxalq təcrübələr haqqında ümumi məlumat verilir, monitorinq edilməli və qiymətləndirilməli olan əsas fəaliyyət göstəriciləri sadalanır və məlumatların toplanmasına, təhlilinə və məlumatlarla bağlı hesabatlılığa dair yerli təcrübələrin təhlili təqdim edilir.

## 3.1. Monitorinq və qiymətləndirmənin əhəmiyyəti

Mediasiya sisteminin fəaliyyəti haqqında mötəbər və informativ məlumatlar onun effektivliyini, səmərəliliyini, güclü və zəif tərəflərini, risklərini və imkanlarını aşkar etməyə kömək edir. Mediasiya sisteminin əsas aspektləri üzrə faktiki məlumatların təhlili bütün səviyyələrdə mediasiya fəaliyyətinin təşkili və tənzimlənməsi ilə bağlı qərarların keyfiyyətinin artırılması üçün zəmin yaradır.

"Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti”nə[2] dair izahedici qeydlərdə CEPEJ mediasiya üzrə dəqiq statistik məlumatların toplanması və sistemləşdirilmiş hesabatların dərc edilməsinin aşağıdakı müsbət təsirlərini müəyyən etmişdir:

1. o, mövcud qanunvericiliyin effektivliyini qiymətləndirməyə imkan verir və müəyyən hissələrin dəyişikliklər tələb edib-etmədiyini göstərir. Kəmiyyət meyarlarının hazırlanması tətbiq edilən mediasiya sxemlərinin müqayisəsinə də imkan verir,
2. mediasiya statistikasının monitorinqi mediasiyanın yüksək keyfiyyətini təmin edə bilər, belə ki, aşağı uğur faizləri zəif təlimlərdən xəbər verə bilər. Beləliklə, problemlər nisbətən erkən mərhələdə həll edilə bilər,
3. o, mediasiyanı təşviq etməyə kömək edir, bu yolla geniş ictimaiyyət onun effektivliyinə əmin ola bilər,
4. o, yüksək keyfiyyətli tədqiqatlar üçün qapıları açır ki, bu da mediasiya haqqında qanunvericiliyin daha da təkmilləşdirilməsinə kömək edə bilər.

Statistik məlumatların toplanması monitorinq ediləcək və qiymətləndiriləcək əsas fəaliyyət göstəricilərinin (KPI) müəyyən edilməsi ilə başlayır.

Məlumatlar ən aşağı səviyyədən - mediatorlardan və ya mediasiya təşkilatlarından başlayaraq toplanır və təqdim edilir. Müvafiq məlumatların təqdim edilməsi adətən qanunla mediatorların və/yaxud mediasiya təşkilatlarının üzərinə düşən hesabatlılıq öhdəliklərinin müəyyən edilməsi ilə təmin edilir. Daha sonra məlumatlar Mediasiya Şurası və/yaxud Ədliyyə Nazirliyi tərəfindən

[2] İnternetdə mövcuddur: https://rm.coe.int/cepej-2019-9-en-handbook/1680951928, səh. 78.

regional və ya milli səviyyədə ümumiləşdirilir və sistemləşdirilir. Dərc etmə öhdəliklərinin müəyyən edilməsi bu fəaliyyətin davamlılığını və keyfiyyətini təmin edə bilər.

Məlumatların toplanması, təhlili və dərc edilməsi dövrünü müəyyən etmək üçün müəyyən müddətlər və dövrilik müəyyən edilməlidir. Adətən bu dövrlər illik, yarımillik, rüblük və/yaxud aylıq olur.

Mediasiya fəaliyyəti haqqında məlumatların ictimaiyyətə açıqlanması sistemin şəffaflığını təmin edir. Bu, istifadəçilər, mediatorlar, vəkillər, məhkəmələr, mediasiya xidməti göstərənlər və digər maraqlı tərəflərin sistemi daha yaxşı başa düşməsinə imkan verir. Mediasiya sisteminin işinə dair lazımi məlumatlara asanlıqla daxil olma imkanı onun inkişafına və ona etimadın möhkəmlənməsinə kömək edir.

Mediasiya sisteminin işinə dair məlumatların toplanması, ümumiləşdirilməsi, təhlili və dərci zamanı mediasiya prosesinin və fərdi məlumatların konfidensiallığı təmin edilməlidir.

Məlumatların toplanması, sistemləşdirilməsi və dərc edilməsində rəqəmsal texnologiyalardan istifadə edilməsi məlumatların toplanması, təqdim edilməsi, təhlili və dərci proseslərinin sürətini artırmağa və xərclərini azaltmağa imkan verir.

## 3.2. CEPEJ alətləri və digər qabaqcıl beynəlxalq təcrübələr

CEPEJ özünün mediasiyaya həsr olunmuş müxtəlif tədqiqatlarında və sənədlərində kəmiyyət və keyfiyyət ölçmə meyarlarını hazırlamağın və mediasiya sisteminin səmərəliliyini, mövcudluğunu, əlçatanlığını və onun barəsində məlumatlılığı monitorinq etməyin əhəmiyyətini dəfələrlə vurğulamışdır. CEPEJ öz alətlərinin işlənib hazırlanması zamanı mövcud qabaqcıl təcrübə və standartları, həmçinin Avropa Şurasının müxtəlif üzv dövlətlərində həyata keçirilən mediasiyanın inkişafı üzrə əməkdaşlıq layihələrinin təcrübəsini təhlil edir və nəzərə alır.

Ailə, mülki, cinayət və inzibati işlərdə Avropa Şurasının mövcud tövsiyələrinin daha yaxşı həyata keçirilməsi üçün 2007-ci il tarixli rəhbər prinsiplərdə[3] CEPEJ üzv dövlətlərin öz mediasiya sxemlərini və davam edən pilot layihələrini daim monitorinq etməsinin və onların kənar və müstəqil subyekt tərəfindən qiymətləndirilməsini təşkil etməsinin vacib olduğunu vurğulamışdır. Mediasiya sxemlərinin keyfiyyətini müqayisə etmək üçün həm keyfiyyət, həm də kəmiyyət qiymətləndirilməsi aspektləri daxil olmaqla müəyyən ümumi meyarlar hazırlanmalıdır.

Artıq yuxarıda izah edildiyi kimi, CEPEJ 2019-cu il tarixli "Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti”ndə[4] mediasiyaya dair statistikanın toplanması və qiymətləndirilməsi zərurəti haqqında ətraflı məlumat vermişdir. Daha konkret desək, Vəsaitdə aşağıdakılar tövsiyə olunur (8.2-ci bölmə):

a) konfidensiallıq prinsipinə riayət etməklə, fərdi mediatorlardan və ya mediasiya xidməti göstərən subyektlərdən, habelə məhkəmə ilə əlaqəli mediasiya və milli səviyyəli digər mediasiya mexanizmlərindən statistik məlumatların toplanmasını və ümumiləşdirilməsini təmin etmək,
b) Avropa Şurasına üzv dövlətlər arasında bu cür məlumatların toplanmasına və müqayisəsinə imkan yaratmaq üçün CEPEJ tərəfindən qəbul edilmiş Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri üçün ilkin cədvəli (Mediasiyaya dair ilkin statistika) statistika

[3] İnternetdə mövcuddur: https://rm.coe.int/16807475b6, https://rm.coe.int/1680747759 və https://rm.coe.int/1680747683.
[4] İnternetdə mövcuddur: https://rm.coe.int/cepej-2019-9-en-handbook/1680951928.

sisteminə inteqrasiya etdirmək. Minimum standart olaraq, orada qeyd olunan məlumatların təqdim edilməsini tələb etmək,

c) statistik məlumatları ictimaiyyətin əldə edə bilməsini, o cümlədən onların internetdə əlçatan olmasını təmin etmək.

"Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika)" mediasiya sistemlərinin fəaliyyətinin qiymətləndirilməsini təkmilləşdirməyə kömək etmək və müxtəlif üzv dövlətlərdə bu cür sistemlərin səmərəliliyinin müqayisəli təhlilini təmin etmək üçün CEPEJ tərəfindən hazırlanmış və onun 2018-ci il tarixli "Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti"nə[5] daxil edilmiş xüsusi alətdir. Onun barəsində bu hesabatın növbəti bölməsində bəhs edilir.

## 3.3. Mediasiya sistemi üçün əsas fəaliyyət göstəriciləri

2017-ci ildə CEPEJ tərəfindən aparılmış mediasiya sorğusu mediasiya sistemlərində qeydlərin aparılmasında və bu sistemlərin fəaliyyətinin qiymətləndirilməsində üzv dövlətlər arasında əsaslı fərqlərin olduğunu aşkara çıxardı. Bir çox üzv dövlətlərdə milli səviyyədə bu cür statistika ümumiyyətlə toplanmır. Mötəbər və müqayisə edilə bilən məlumatların olmaması mediasiya sistemlərinin fəaliyyətinin monitorinqini və qiymətləndirilməsini qeyri-mümkün edir və istənilən qərar qəbul edən şəxsi və maraqlı tərəfi kor insanın durumuna salır.

Bu qeydi nəzərə alan və mediasiya sistemlərinin fəaliyyətinə dair dəqiq məlumatların saxlanması və yayılmasının vacibliyinə əmin olan CEPEJ 2018-ci ildə "Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika)" sənədini qəbul etdi. Bu alətin hədəf auditoriyasını mediasiya xidməti göstərənlər, assosiasiyalar, institutlar və/və ya federasiyalar, fərdi mediatorlar və Avropa Şurasına üzv dövlətlər təşkil edir.

Bu İlkin cədvəl mediasiya sistemlərinin fəaliyyətinin qiymətləndirilməsini təkmilləşdirməyə kömək etmək və müxtəlif üzv dövlətlər arasında belə sistemlərin səmərəliliyinin müqayisəli təhlilini təmin etmək məqsədi daşıyır.

Qeyd etmək lazımdır ki, bu alət yalnız mediasiya sistemlərinin monitorinqi prosesində qiymətləndirilməli olan əsas fəaliyyət parametrlərini təqdim edir. İşlərin kateqoriyaları və konkret göstəricilər milli qanunvericiliyin və təcrübənin xüsusiyyətləri nəzərə alınmaqla uyğunlaşdırılmalıdır. Bununla belə, Avropa Şurasının müxtəlif üzv dövlətləri arasında müqayisəli təhlilin aparılmasını təmin etmək üçün statistik məlumatların aşağıda təqdim olunmuş cədvələ uyğun olaraq əsas göstəricilərin çıxarılmasına imkan verəcək şəkildə aparılması məqsədəuyğundur.

İlkin cədvəl yalnız ilkin statistik məlumatları əks etdirir. Mediasiya xidməti göstərənlər, assosiasiyalar, institutlar və/və ya federasiyalar, fərdi mediatorlar və üzv dövlətlər öz konkret məqsədləri üçün ağlabatan və faydalı olan digər fəaliyyət göstəricilərini əks etdirən məlumatları toplaya və qiymətləndirə bilərlər.

Bu alətdə həmçinin qeyd edilir ki, mümkün olarsa, statistik məlumatların toplanması və qiymətləndirilməsi ildə bir dəfədən çox həyata keçirilməlidir. Mediasiya üzrə statistik uçotun aparılması və statistik məlumatların təhlili işinin sürətləndirilməsi və səmərəliliyinin artırılması üçün informasiya və elektron kommunikasiya texnologiyalarından və xüsusi proqram təminatından istifadə təşviq edilir. İstənilən halda, statistik məlumatların toplanması və onların analitikası mediasiyada fundanmental əhəmiyyət daşıyan konfidensiallıq prinsipinə maneə yaratmamalıdır.

[5] İnternetdə mövcuddur: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 40-49.

İlkin cədvəl[6] mediasiya sistemlərinin aşağıdakı parametrlərinin ölçülməsinə dair standartları müəyyən edir:

1. **Mediasiya proseslərinin sayı**
   Aşağıdakıların ümumi sayını kəmiyyətlə müəyyən etmək tövsiyə olunur: (a) mediasiya üçün müraciətlər və yaxud mediasiyaya yönləndirmələr; (b) ilkin mediasiya sessiyaları; (c) bütün tərəflərin iştirakı ilə keçirilmiş tam mediasiya prosesləri; və (d) mübahisəni tam və ya qismən həll etmiş mediasiya prosesləri. Bu rəqəmlərin müqayisəsi cəmiyyətdə mediasiya barədə məlumatlılığa, tərəflərə məlumatların verilməsinin səmərəliliyinə, mediasiya proseslərində tam iştiraka və tərəflər mediasiya prosesində tam iştirak etdikdə həllin səmərəliliyinə dair faydalı göstəricilər əldə etməyə imkan verir. Məsələn, (a) və (b) və/yaxud (a) və (c) və/yaxud (b) və (c) rəqəmlərini müqayisə edərək,[7] tərəflərin müraciəti əsasında başladılan mediasiya proseslərində iştirak (iştirak etməmə) faizlərini, ümumilikdə tərəflərin mediasiyada iştirak (iştirak etməmə) faizlərini əldə etmək, sonra isə bu faizləri yaxşılaşdırmaq üçün səbəbləri və imkanları araşdırmaq mümkündür. (c) və (d) rəqəmlərinin müqayisəsi mübahisələrin həll olunma faizlərini və əlavə olaraq məcburi mediasiya ilə könüllü mediasiya üzrə fərqləndirilə bilən faizləri (bir qayda olaraq, məcburi mediasiyada mübahisələrin həll olunma faizləri könüllü mediasiyaya nisbətən aşağı olur) əldə etməyə imkan verir. Bu məlumatların daha dərindən təhlili mediasiya sisteminin və/yaxud onun müxtəlif subyektlərinin fəaliyyətində çatışmazlıqları və ya maneələri aşkar edə bilər. Bu aspektlərin müxtəlif beynəlxalq səviyyədə tanınmış əmsallar – dərəcələr/göstəricilər şəklində kəmiyyətlərlə ifadə edilən hədəfləri qarşıya qoymaqla konkret məqsədlərə nail olmaq olar. Bu baza göstəriciləri ölkənin konkret ehtiyacları nəzərə alınmaqla əlavə oluna bilər. Məsələn, Azərbaycanda mediasiya üçün müraciətlər əsasında başladılmış proseslərin yekun nəticələri (yekunları) haqqında dəqiq məlumatların monitorinqi və təhlili məqsədəuyğun olardı ki, bu da mediasiya sisteminin müxtəlif səmərəlilik əmsallarının (göstəricilərinin) daha dəqiq hesablanmasına və monitorinqinə başlamaq üçün etibarlı baza təşkil edə bilər.[8]

---

[6] Konkret KPI-lərə dair detallar üçün "İlkin cədvəl" sənədinin mətninə bax: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 40-49.

[7] Qeyd: Ekspertlərin başa düşdüyünə görə, hazırda mediasiya işlərinin həll olunma faizi kimi "c" (bütün tərəflərin iştirakı ilə keçirilmiş tam mediasiya prosesləri) və "d" (mübahisəni tam və ya qismən həll etmiş mediasiya prosesləri) rəqəmlərinin nisbəti deyil, "a" (mediasiya üçün müraciətlər) və "d" (mübahisəni tam və ya qismən həll etmiş mediasiya prosesləri) rəqəmlərinin nisbəti götürülür ki, bu da mediasiya statistikasını təhrif edən və mediasiya işlərinin həll olunma faizinin hesablanması üzrə beynəlxalq təcrübəyə və standartlara uyğun olmayan yanaşmadır. Mediasiya ilə bağlı bu və digər KPI-lərin hesablanması təcrübələrini beynəlxalq konsepsiya və standartlara uyğunlaşdırmaq tövsiyə olunur.

[8] Azərbaycanda monitorinq edilməsi tövsiyə olunan altı mümkün son nəticə aşağıda təqdim edilir: (bu rəqəmlərin müqayisəsi və onlar arasında müxtəlif nisbətlərin müəyyən edilməsi mediasiya sisteminin müxtəlif fəaliyyət göstəriciləri (məsələn, mediasiya işlərinin həll olunma faizi, mediasiya prosesində iştirak faizi, mediasiya razılaşmalarının faizi və s.) barədə dəqiq və aydın təsəvvür yarada bilər; onların hamısı barədə məlumatların olması sistemin xüsusiyyətlərini, onun müxtəlif elementlərinin çatışmazlıqlarının səbəblərini və/yaxud sistemin düzgün/uğurlu işləməsinin əlamətlərini müəyyən etmək üçün çox faydalı olardı):

i. Tərəflərdən biri mediasiya üçün mediasiya təşkilatına müraciət edib. Qarşı tərəf(lər)i ilkin mediasiya sessiyasına dəvət etmək üçün bildiriş göndərilib.
   a. *Heç bir tərəfdən cavab yoxdur (bu zaman səssiz qalan müraciət etmiş tərəf də daxil olmaqla):*
      1. **Bu halda bildiriş prosesinin tamamlanmaması haqqında arayış verilir.** İlkin mediasiya sessiyasının təşkil edilə bilməyəcəyini təsdiq edən sənəd. *(İş bağlanır)*

ii. İlkin mediasiya sessiyasında bütün tərəflər iştirak etməyib.

2. **Mübahisəli məsələlər üzrə mediasiya üçün müraciətlərin növü və həll olunmuş işlərin növü, o cümlədən həll olunma faizi**
   Mediasiya proseslərinin ümumi sayının və tam və ya qismən həll ilə başa çatmış mediasiya proseslərinin sayının aşağıdakılar üzrə bölgüsünü aparmaq tövsiyə olunur: (i) mübahisələrin növləri (mülki və kommersiya, ailə, inzibati, əmək, istehlakçı mübahisələri, habelə böyüklərin və yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə mübahisələr) və (ii) müraciətlərin növləri (məhkəməyə müraciət etmək üçün mediasiyanın ilkin şərt kimi qanunla tələb olunması, mübahisənin məhkəmə tərəfindən mediasiyaya yönləndirilməsi, mübahisə yarandıqdan sonra könüllü razılıq əsasında mediasiyaya müraciət, mübahisə yaranana qədər bağlanmış müqavilənin müddəası əsasında mediasiyaya könüllü müraciət). Mübahisələrin həll olunma faizi tam və ya qismən həll olunmuş mübahisələrin sayının bütün tərəflərin iştirakı ilə aparılmış tam mediasiya proseslərinin sayına nisbəti kimi hesablanır. Mülki və ailə işləri üzrə könüllü mediasiyada mübahisələrin həll olunma faizi adətən 50 faizdən yuxarı olur, məcburi əsasda mediasiyaya müraciət edilən və ya məhkəmə tərəfindən mediasiyaya yönləndirilən işlərdə isə həll olunma faizi müxtəlif hallardan asılı olaraq təxminən 50 faiz və ya bir qədər az olur.
3. **Mediasiya prosesləri və birinci instansiya məhkəməsinə daxil olan işlər arasında balans/nisbət**
   Bu parametr daxil olan tam mediasiya işləri ilə daxil olan məhkəmə işlərinin müqayisəsi üçün nəzərdə tutulub. Tam mediasiya proseslərinin sayı ilə və məhkəmə icraatlarının sayının nisbəti kimi hesablanır. Ayrı-ayrı mübahisə kateqoriyaları arasındakı fərqləri anlamaq üçün bu rəqəmləri müxtəlif növ mübahisələr (mülki və kommersiya, ailə, inzibati, əmək, istehlakçı mübahisələri, habelə böyüklərin və yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə mübahisələr) üzrə bölmək məqsədəuyğun olar.
4. **Mediatorların sayı və ixtisasları**
   Mediasiya fəaliyyəti müxtəlif peşə sahibləri tərəfindən həyata keçirilə bilər. Mediasiya fəaliyyətində hansı peşələrin təmsil olunduğunu və onların regional əhatə dairəsinin nədən ibarət olduğunu başa düşmək faydalı ola bilər. "İlkin cədvəl"də adətən mediasiya fəaliyyəti ilə məşğul olan peşə sahibləri sırasına bunlar daxil edilib: (a) vəkillər və digər hüquqşünaslar, (b) notariuslar, (c) icra məmurları, (d) hakimlər, (e) psixoloqlar, (f) digərləri. Ümumi sayın ölkələr, müxtəlif şəhər və rayonlar üzrə bölgüsü

---

2. **İştirak etməmə haqqında arayış verilir.** İlkin mediasiya sessiyasında bütün tərəflərin iştirak etmədiyini təsdiq edən sənəd. *(İş bağlanır)*

iii. Bütün tərəflərin iştirakı ilə ilkin mediasiya sessiyası keçirilib.

a. *Bütün tərəflər prosesi davam etdirməyə və tam mediasiya prosesində iştirak etməyə qərar verməsələr:*

3. **İlkin sessiyada iştirak haqqında arayış verilir.** Kimin mediasiya prosesində iştirak etdiyini təsdiq edən və tərəflərin tam mediasiya prosesində iştirak etməyə razı olmadığına dair nəticəni əks etdirən sənəd. *(İş bağlanır)*

b. *Tərəflər mediasiyanın tətbiq edilməsi və tam mediasiya prosesində iştirak etmək barədə müqavilə bağlamaq qərarına gələrsə:*

4. **Tərəflər mübahisənin mediasiya vasitəsilə tam həll edildiyi barədə sənədi – xitam haqqında protokolu imzalayırlar.** Mübahisə tam həll olunur. *(İş bağlanır)*
5. **Tərəflər mübahisənin mediasiya vasitəsilə qismən həll edildiyi barədə sənədi – xitam haqqında protokolu imzalayırlar.** Mübahisə qismən həll olunur. *(İş bağlanır)*
6. **Tərəflər xitam haqqında protokolu imzalayırlar.** Mübahisə həll olunmur. *(İş bağlanır)*

mediasiya şəbəkəsinin növünü və onun coğrafi əhatə dairəsini anlamağa kömək edə bilər.

5. **Mediatorların ixtisaslaşdığı sahələr**
   Mediasiya statistikasının bu hissəsi müxtəlif növ mübahisələr üzrə fəaliyyət göstərən mediatorların sayı barədə təsəvvür yaradır: (a) mülki və kommersiya, (b) ailə, (c) inzibati, (d) əmək, (e) istehlakçı mübahisələri, (f(1)) böyüklərin, (f(2)) yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə mübahisələr. Mediasiya şəbəkəsinin xüsusiyyətlərini daha yaxşı başa düşmək üçün milli rəqəmləri şəhərlər və regionlar üzrə də bölmək tövsiyə olunur.
6. **Mediatorların sayı, mənsubiyyəti və ixtisaslaşdığı sahə**
   Mediasiya fəaliyyətinin mediasiya xidməti göstərən subyektlər tərəfindən həyata keçirildiyi ölkələrdə təkcə onların ümumi sayını deyil, həm də (i) mənsubiyyətini (özəl, məhkəmə ilə əlaqəli olanlar, ticarət palataları, vəkillər assossiayaları, dövlət və ya bələdiyyə, digər), (ii) müxtəlif növ mübahisələr üzrə ixtisaslaşma sahələrini (mülki və kommersiya, ailə, inzibati, əmək, istehlakçı mübahisələri, böyüklərin və yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə mübahisələr) və (iii) regional əhatə dairəsini qiymətləndirmək vacibdir.

Diqqətəlayiq haldır ki, “İlkin cədvəl” təkmilləşmiş mediasiya sistemində monitorinq edilə bilən mümkün göstəricilərin tam siyahısını təqdim etmir. Orada göstərilənlərdən əlavə, mediasiya proseslərinin müddətini, mübahisələrin həlli üzrə məhkəmə prosesləri ilə müqayisədə mediasiyanın xərclərini/qənaətcilliyini, istifadəçi məmnuniyyətinin səviyyəsini və sairəni əks etdirən göstəricilər ola bilər.

Ekspertlər Mediasiya Şurasına və Azərbaycan Ədliyyə Nazirliyinə mediasiya statistikasında əlavə göstəricilərin monitorinqinin zəruriliyi ilə bağlı konstruktiv müzakirə aparılmasını və onların beynəlxalq səviyyədə tanınmış standartlara uyğun hesablanması düsturlarının razılaşdırılmasını ciddi surətdə tövsiyə edirlər.

### 3.4. Məlumatların toplanması, təhlili və hesabatlılıq üzrə yerli təcrübələr

"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra – "Mediasiya haqqında" Qanun) mediasiya üzrə statistik məlumatların toplanması ilə bağlı bəzi ümumi qaydaları müəyyən edir.

20.1-ci maddədə nəzərdə tutulur ki, Mediasiya Şurası mediasiya fəaliyyəti haqqında məlumatların toplanması, təhlili və sistemin monitorinqi üzrə mərkəzi qurumdur. Mediasiya Şurasına aşağıdakı funksiyalar həvalə edilir:

- mediasiya təşkilatlarından, mediatorlardan və mediasiya təlimi qurumlarından statistik məlumatları toplamaq və təhlil etmək ("Mediasiya haqqında" Qanunun 20.1.7-ci maddəsi),
- mediasiya fəaliyyəti haqqında informasiya və statistik xarakterli hesabatı rübdə bir dəfə ictimaiyyətə açıqlamaq ("Mediasiya haqqında" Qanunun 20.1.15-ci maddəsi),
- üç ildə bir dəfədən az olmayaraq mediasiya sisteminin səmərəliliyini təhlil etmək, bundan irəli gələrək müvafiq təkliflər vermək və digər tədbirlər görmək ("Mediasiya haqqında" Qanunun 20.1.8-ci maddəsi).

Digər tərəfdən, qanunvericiliyə görə, mediatorlar eyni zamanda konfidensiallıq prinsipinə riayət etməklə öz fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmağa ("Mediasiya haqqında" Qanunun 12.1.4-cü maddəsi) və bu qanuna uyğun olaraq Mediasiya Şurasının qəbul etdiyi qərarları icra etməyə borcludurlar. Mediasiya təşkilatları mediator tərəfindən göstərilən mediasiya xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi üçün təsdiq olunmuş qaydaya malik

olmalıdır ("Mediasiya haqqında" Qanunun 11.3.2-ci maddəsi). Bununla belə, mediasiya ilə bağlı dəqiq statistik məlumatların Mediasiya Şurasına təqdim edilməsinə kimin və nə dərəcədə cavabdeh olduğu aydın deyil.

Təəssüf ki, "Mediasiya haqqında" Qanunda Ədliyyə Nazirliyinin mediasiya ilə bağlı statistik məlumatların toplanması, ümumiləşdirilməsi və təhlili məqsəd daşıyan heç bir funksiyası sadalanmayıb və onun fəaliyyətinin Mediasiya Şurası ilə əlaqələndirilməsi qeyd edilməyib.

8 aprel 2020-ci il tarixində Mediasiya Şurası tərəfindən təsdiq edilmiş "Statistik məlumatların toplanması üçün Təlimat" ekspertlərin sahə missiyasından sonra onlarla paylaşılıb. Təqdim edilmiş sənədin ingilis dilinə maşın (proqram) tərcüməsinin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, o, prinsipcə, "Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri (KPİ) üçün ilkin cədvəl" (Mediasiyaya dair ilkin statistika)" sənədinə uyğundur. Bununla belə, bu Təlimatın Azərbaycan reallığına nə dərəcədə uyğunlaşdırıldığı və praktikada nə dərəcədə tətbiq edildiyi aydın deyil. Bununla bağlı bəzi şübhələr ekspertlərlə paylaşılmış statistik hesabatın təhlili nəticəsində yaranmışdır.

Ekspertlərə Mediasiya Şurasının 2022-ci ilin dekabr və 2023-cü ilin yanvar ayları üçün statistik hesabatı təqdim edilib. Bu hesabatda CEPEJ-in İlkin cədvəlində sadalanan bütün KPI-lərin göstəriciləri əks olunmayıb. Milli statistikanın ümumiləşdirilməsi kifayət qədər qeyri-müəyyəndir. Buraya mediasiya üçün müraciətlərin ümumi sayı və onlara baxılmasının nəticələri haqqında yalnız 1 slayd (sənəddəki 34 slayddan biri) daxildir:




*Şəkil 2. Mediasiya Şurası tərəfindən paylaşılan, Azərbaycanda qeydə alınmış işlərin ümumi sayını əks etdirən 2022-ci ilin dekabr və 2023-cü ilin yanvar ayı üzrə statistik hesabata daxil edilmiş slayd*

Bu, mediasiya sisteminin fəaliyyətinin nəinki keyfiyyət aspektləri, hətta dəqiq kəmiyyət parametrləri haqqında aydın təsəvvür yaratmağa imkan vermir.

Hesabatın əsas hissəsi (34 slayddan 27-si) ayrı-ayrı mediasiya təşkilatlarının fəaliyyəti haqqında məlumatlara həsr olunub. Təəssüf ki, bu bölmələrdə ümumi rəqəmlər, məsələn, aşağıda göstərilənlər təqdim edilir:




*Şəkil 3. Mediasiya Şurası tərəfindən paylaşılan 2022-ci ilin dekabr və 2023-cü ilin yanvar ayı üzrə statistik hesabata daxil edilmiş ayrı-ayrı mediasiya təşkilatları üzrə statistikaya dair şablon slayd*

Mediasiya Şurasının statistik hesabatının nə üçün beş ay gecikmə ilə və cəmi iki ay üçün tərtib edilməsi, "Mediasiya haqqında" Qanunun 20.1.15-ci maddəsində nəzərdə tutulan rüblük hesabatın təqdim edilməsi barədə müddəaya nə üçün əməl edilməməsi, hesabatın "Mediasiya haqqında" Qanunda nəzərdə tutulduğu kimi ictimaiyyətə necə açıqlanması izah olunmayıb və Mediasiya Şurasının son dövrə aid daha yeni məlumatları əks etdirən hər hansı hesabat tərtib edib ictimaiyyətə açıqlaması göstərilməyib.

Ədliyyə Nazirliyi milli məhkəmələrin İT sistemini idarə edir. O, məhkəmələrin İT sistemindən mediasiya ilə bağlı məlumatların əldə edilməsi, yaxud tam mediasiya proseslərinin və məhkəmələrə daxil olmuş işlərin sayı arasında balans nisbəti kimi əsas fəaliyyət göstəricisinin (KPI) hesablanması üçün istifadə edə bilər. Bununla belə, Mediasiya Şurası və Ədliyyə Nazirliyi tərəfindən toplanan mediasiya ilə bağlı məlumatlar ümumiləşdirilməyib. Mediasiya Şurası ilə Ədliyyə Nazirliyindən əldə edilmiş məlumatların arasında bəzi uyğunsuzluqlar müəyyən edilə bilər və onların aradan qaldırılması üçün müəyyən edilmiş prosedur yoxdur.

Ekspertlər məlumatların etibarlılığı, KPI-lar, onların dərc olunma tezliyi və ölkə səviyyəsində mediasiya ilə bağlı statistik məlumatların hazırlanması və ictimaiyyətə açıqlanmasının digər aspektləri ilə bağlı Ədliyyə Nazirliyi və Mediasiya Şurası arasında tam konsensus və koordinasiyanın olduğu qənaətinə gələ bilmədilər. Mediasiyanın bu iki maraqlı tərəfi arasında bu aspektlərlə bağlı koordinasiya və qarşılıqlı anlaşmanın səviyyəsini yaxşılaşdırmaq məqsədəuyğun olardı.

Hazırda Mediasiya Şurası, bu hesabatın 3.4.2-ci bölməsində qeyd edildiyi kimi, mediasiya təşkilatlarından lazımi məlumatları əldə etmək üçün Google cədvəlləri texnologiyasından istifadə edir. Hər bir mediasiya təşkilatı məlumatların müvafiq cədvələ daxil edilməsi və redaktə edilməsi üçün məsul şəxsləri müəyyən etmişdir. Mediatorlar fəaliyyətləri haqqında məlumatları oraya özləri daxil etmirlər.

Toplanan məlumatlar bu hesabatın 3.4.2-ci bölməsində öz əksini tapmışdır. Hazırkı hesabatın müəllifləri belə qənaətə gəlmişlər ki, bu məlumatlar mediasiya üçün bütün müraciətlərin yekun nəticələri üzrə hərtərəfli bölgü aparılmasını təmin etmir, bu sözlər xüsusən müraciətlərin bütün mediasiya prosedurlarından keçərək yekun mərhələyə çatmadığı hallara aiddir.

Alınan məlumatlar əsasında beynəlxalq ekspertlər belə qənaətə gəlmişlər ki, Mediasiya Şurasının topladığı və dərc etdiyi məlumatlardan yekun nəticələri müəyyən etmək olmur. Bundan başqa, Mediasiya Şurası tərəfindən paylaşılan 2022-ci ilin yanvar-dekabr ayları üzrə

statistik hesabatda əks olunmuş işlərin 17,3%-lik həll olunma göstəricisi tərəflərin mediasiya barədə razılığa gəldiyi hallara (tam mediasiya) deyil, mediasiya üçün müraciətlərin sayına aiddir. Müvafiq olaraq, bu, təəccüblü dərəcədə aşağı göstəricidir. Faktaraşdırıcı missiyanın gedişində mediasiya təşkilatları ekspertlərə məlumat verdilər ki, tam mediasiya proseslərinin keçirildiyi hallarda işlərin həll olunma faizi daha yüksəkdir. Mediasiya Şurasının, Ədliyyə Nazirliyinin, geniş ictimaiyyətin və digər maraqlı tərəflərin mediasiya proseslərinin yekun nəticələri haqqında hərtərəfli məlumatlara malik olmadığı barədə gəlinən nəticədən əlavə, ən bariz qənaət ondan ibarətdir ki, Azərbaycanın mediasiya sisteminin rəqəmsallaşdırılmasına təcili ehtiyac var.

Nəhayət, ekspertlərə statistik məlumatların necə toplanması, ümumiləşdirilməsi və rüblük statistik hesabatlarda əyani nümayiş etdirilməsi barədə məlumat verilməyib. Aydın deyil ki, "Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri (KPI) üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika)" sənədində qeyd edilən əsas fəaliyyət göstəriciləri (KPI) nə dərəcədə müəyyən edilə bilər.

# 4. MEDİASİYA İŞLƏRİNİN İDARƏ EDİLMƏSİ SİSTEMİ

Bu fəsil Azərbaycan konteksti xüsusi nəzərə alınmaqla mediasiya işlərinin idarə edilməsi sisteminin (İİS) tətbiqinin əhəmiyyəti barədə anlayış yaratmaq və onun tətbiqinə dair tövsiyələr vermək məqsədi daşıyır.

Birinci bölmədə işlərin idarə edilməsi sisteminin mediasiya üçün vacibliyi vurğulanır. Orada İİS-in istifadəsinin faydaları, o cümlədən işlərin ardıcıl olaraq izlənilməsi, mediasiya prosesinin təşkilinin yaxşılaşdırılması və səmərəliliyinin artırılması məsələləri nəzərdən keçirilir. İİS-in mediasiyanın nəticələrinə müsbət təsirini nümayiş etdirmək üçün qabaqcıl təcrübələr və nümunələr təqdim olunur.

İkinci bölmədə xüsusi olaraq mediasiya üçün hazırlanmış işlərin idarə edilməsi sisteminin xüsusiyyətləri və funksiyalarına diqqət yetirilir. Orada işlərin sənədləşdirilməsi, planlaşdırma, kommunikasiya alətləri və mediasiya işlərinin effektiv idarə olunmasına töhfə verən hesabatlılıq imkanları kimi əsas elementlər təsvir edilir.

4.3-cü bölmədə mediasiya üçün İİS-in tətbiqi prosesi ətraflı nəzərdən keçirilir. Orada beynəlxalq standartlara və yerli təcrübələrə istinad edilir, mövcud mediasiya sistemində İİS-in istifadəsindən, tətbiqindən, həmin sistemə inteqrasiyasından bəhs edilir. Daha sonra həmin bölmədə mediasiya üçün işlərin idarə edilməsi sistemindən istifadənin üstünlükləri və məhdudiyyətləri tədqiq edilir. Orada şəffaflığın artırılması, prosesin təkmilləşdirilməsi üçün məlumatların təhlili və inzibati yükün azaldılması kimi üstünlüklərdən bəhs edilir. Orada həmçinin lazımi təlimlərin zəruriliyinə və mümkün texnoloji maneələr kimi potensial məhdudiyyətlərə toxunulur.

Bölmənin sonunda Azərbaycanda işlərin idarə edilməsi üzrə mövcud sistem təsvir edilir. Orada statistikanın əvvəllər mediasiya təşkilatları tərəfindən necə idarə edildiyinə və hazırda necə idarə olunduğuna işıq salınır və bu təcrübələrin monitorinqində Mediasiya Şurasının rolu və fəaliyyəti vurğulanır.

## 4.1. İşlərin idarə edilməsi sisteminin əhəmiyyəti

Bütün mediasiya ekosistemini və bütün mediasiya təşkilatlarını idarə etmək üçün işlərin idarə edilməsi üzrə milli sistemə malik olmaq Azərbaycan üçün bir neçə səbəbə görə vacibdir.

Birincisi, işlərin idarə edilməsinin milli sistemi mediasiya təcrübələri və məlumatların toplanması üçün vahid standartın tətbiqinə imkan verir. O, bütün mediasiya təşkilatları üzrə məlumatların uzlaşmasını, etibarlılığını və müqayisəliliyini təmin edir, milli səviyyədə mediasiya prosesinin effektiv monitorinqinə və qiymətləndirilməsinə şərait yaradır.

İkincisi, effektiv İİS məlumatların statistikasını avtomatik olaraq yaratmağa imkan verir ki, bu da mediasiya işlərinin səmərəliliyi, tendensiyaları və nəticələri haqqında dəyərli informasiyaları təmin edir. Bu məlumatlar faktlara əsaslanan qərarların qəbulunda, siyasətin işlənib hazırlanmasında və mediasiya xidmətlərini təkmilləşdirmək üçün resursların bölgüsündə istifadə edilə bilər.

Daha sonra, işlərin idarə edilməsinin milli sistemi mediasiya təşkilatlarına, xüsusən də məhdud resursları olanlara işlərin səmərəli idarə edilməsi üçün yardımçı proqram təminatına çıxış əldə etmək imkanı verir. Buraya işlərin izlənilməsi, planlaşdırma, sənədlərin idarə edilməsi və hesabatların təqdim edilməsi, əməliyyatların təsirliliyinin və səmərəliliyinin artırılması daxildir.

Sistem həssas mediasiya məlumatlarının qorunmasına yönələn etibarlı təhlükəsizlik funksiyalarını özündə ehtiva edə bilər ki, bu da məlumatların konfidensiallığını, bütövlüyünü

və məxfiliyi təmin edir. Bu isə mediasiya təşkilatları, tərəflər və vəkillər arasında etimad yaradır və mübahisələrin mediasiya vasitəsilə həlli üçün təhlükəsiz mühit yaradır.

Digər səbəb isə belə bir sistemin mediasiya təşkilatları arasında əməkdaşlığı və məlumat mübadiləsini təşviq etməsidir. O, bilik, təcrübə və resursların mübadiləsini asanlaşdırır, öyrənmə mədəniyyətini inkişaf etdirir və mediasiya ekosistemində davamlı təkmilləşdirməyə şərait yaradır.

İşlərin idarə edilməsi üzrə milli sistem tətbiq edilərkən mediasiya xidmətləri ictimaiyyət üçün daha əlçatan olur. Sistem istifadəçi üçün rahat interfeysləri, məlumat və resursları təmin edə, mediasiyanın faydaları haqqında ictimaiyyətin məlumatlılığını artıra və mübahisələrin həlli üsulu kimi onun istifadəsini təşviq edə bilər.

Hərtərəfli İİS şəffaf, əlçatan və səmərəli şikayət mexanizmləri yaratmaqla Mediasiya Şurası və mediasiya təşkilatları üçün hesabatlılıq mexanizmləri təsis edə bilər. O, standartlara, qaydalara və etik prinsiplərə uyğunluğu dəstəkləyərək effektiv monitorinqə, nəzarətə və fəaliyyətlərin qiymətləndirilməsinə imkan yaradır.

Nəhayət, işlərin idarə edilməsi üzrə milli sistem e-məhkəmə sistemi ilə inteqrasiya oluna bilər ki, bu da məhkəmə mərhələsinə çatanadək mediasiya yolu filtrasiyadan keçmiş işlərin izlənməsinə və təhlilinə imkan verir. Bu inteqrasiya məhkəmə sistemindəki yükün azaldılmasında mediasiyanın effektivliyinə dair dəyərli informasiyaları təmin edir. Ekspertlər qrupu mediasiyanın elektron məhkəmə sistemi ilə rəqəmsal inteqrasiyasının gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyinin İnformasiya Texnologiyaları İdarəsinin Mediasiya Şurası ilə daimi əlaqədə olduğunu qeyd edib.

## 4.2. İşlərin idarə edilməsi sisteminin xüsusiyyətləri və funksional imkanları

İşlərin idarə edilməsi sisteminin bir neçə məqsədi və onların həyata keçirilməsini dəstəkləyən bir neçə imkanları/modulları olmalıdır:

- Mediatorların elektron dövlət reyestrinin yaradılması:
    - Məqsəd: mediatorların, mediasiya təşkilatlarının, təlim müəssisələrinin və təlimçilərin bütün akkreditasiya prosesini onlayn idarə etmək və ictimaiyyətlə məsləhətləşmələri asanlaşdırmaq üçün onlayn siyahılar dərc etmək;
    - Struktur:
        - Mediasiya Şurası üçün server;
        - Mediatorlar, mediasiya təşkilatları/mediasiya xidməti göstərənlər, təlim qurumları və təlimçilər üçün server;
        - İstifadəçilər üçün interfeys;
    - Qeyd: Bu modul İtaliyanın Ədliyyə Nazirliyi (https://mediazione.giustizia.it/) və ya Rumıniya Mediasiya Şurası (https://www.cmediere.ro/mediatori/) tərəfindən hazırlanmış modullara oxşar ola bilər.
- İşlərin idarə edilməsi üzrə milli sistemin (İİS) yaradılması (müxtəlif mərhələlərdə işə salına bilər):
    - Məqsəd: istifadəçilər tərəfindən mediasiya sorğularının verilməsini asanlaşdırmaq, hər bir iş üçün unikal nömrə ilə başlayan işlərin idarə edilməsinin ümummilli standart sistemini formalaşdırmaq, real vaxt rejimində statistik məlumatları toplamaq və e-məhkəmə sistemi ilə gələcək inteqrasiya üçün imkan yaratmaq.
    - Struktur:
        - Mediatorlar və mediasiya təşkilatları üçün server;

    - Mediasiya Şurası üçün server (konsolidasiya olunmuş məlumatlara məhdud giriş)
    - Qeydiyyatdan keçmiş istifadəçilər üçün interfeys.
  - Qeyd: Bu modul İtaliyanın Ədliyyə Nazirliyi (https://mediazione.giustizia.it/) tərəfindən hazırlanmış modullara oxşar ola bilər. Azərbaycan üçün məqsəd prosesi avtomatlaşdırmaq və unikal nömrə ilə artıq sistemdə qeydə alınmış hər bir iş haqqında məlumatları sadələşdirilmiş şəkildə təqdim etməkdir. İİS-i funksional baxımdan digər sistemlərlə uzlaşdırmaq və gələcəkdə digər müasir xidmətlər/platformalar (məsələn, elektron ödəniş sistemləri, sənəd idarəetmə proqramları və s.) ilə inteqrasiyanı təmin etmək vacib olacaqdır. Mediasiya təşkilatları öz təşəbbüsü və vəsaitləri hesabına müxtəlif və nəticə etibarilə daha təkmil iş idarəetmə platformaları hazırlaya bilərlər. Konkret xidmət təchizatçıları üçün nəzərdə tutulan bu platformalar elə tərtib edilməlidir ki, onlar milli İİS ilə “təmasda ola” və monitorinq və statistika üçün lazım olan məlumatları onunla mübadilə edə bilsin.
- Mediasiya Şurasının internet saytının yenidən dizayn edilməsi və ya təkmilləşdirilməsi.

## 4.3. Mediasiya üçün işlərin idarə edilməsi sisteminin tətbiqi

Azərbaycanda İşlərin idarə edilməsi sisteminin mümkün mərhələli tətbiqi prosesini aşağıda təqdim edirik:

**1-ci mərhələ: Reyestr modulunun işlənib hazırlanması**

Müddət: 4-6 ay

- Mediatorlar, mediasiya təşkilatları, təlimçilər və təlim təşkilatları üçün reyestr modulunun hazırlanması.
- Mediasiya Şurasının öz reyestr məlumatlarını idarə etməsi üçün server sisteminin yaradılması.
- Mediatorların, mediasiya təşkilatlarının, təlimçilərin və təlim təşkilatlarının öz məlumatlarını yeniləmələri üçün server sisteminin yaradılması.
- İstifadəçilərin reyestrə daxil olması və axtarış aparması üçün istifadəçiyə rahat interfeysin işlənib hazırlanması.

**2-ci mərhələ: İşlərin idarə edilməsi üzrə milli sistemin hazırlanması**

Müddət: 8-12 ay

- İşlərin idarə edilməsini ən azı baza səviyyəsində həyata keçirmək üçün İİS yaratmaq. Mövcud resurslar nəzərə alınmaqla işlərin izlənilməsi, planlaşdırma, sənədlərin idarə edilməsi, hesabatlılıq, cari və dövri statistik məlumatların avtomatik yaradılması və vizuallaşdırılması kimi qabaqcıl funksiyalar mövcud resurslar nəzərə alınmaqla tətbiq edilə bilər və yaxud onların tətbiqi qismən və ya tamamilə belə sistemin formalaşmasının növbəti mərhələsinədək təxirə salına bilər.
- Mediasiya Şurasının bütövlükdə işlərin idarə edilməsi sistemini/platformasını öz imkanları ilə (proqram hazırlayanların/proqramçıların köməyi olmadan) idarə etməsi üçün administrator hüquqlarına və funksiyalarına malik olduğu server sistemini formalaşdırmaq.
- Mediatorların və mediasiya təşkilatlarının elektron sənəd dövriyyəsini aparması və işləri idarə etməsi üçün server sistemini yaratmaq.
- Qeydiyyatdan keçmiş istifadəçilərin işlərin idarə edilməsi sisteminə daxil olması və öz işləri ilə "təmasda olması" üçün istifadəçiyə rahat interfeysin işlənib hazırlanması.

**3-cü mərhələ: İnternet saytının yenidən dizayn edilməsi və ya təkmilləşdirilməsi**

Müddət: 3-4 ay

- Mediasiya Şurasının mövcud internet saytını işlərin idarə edilməsi üzrə yeni sistemə uyğunlaşdırmaq üçün yenidən dizayn etmək və ya təkmilləşdirmək.
- İnternet saytının rahat istifadə imkanlarını, əlçatanlığını və məlumat arxitekturasını təkmilləşdirmək.
- Mediasiya xidmətləri, qaydaları və resursları haqqında hərtərəfli və yenilənən məlumatları təqdim etmək üçün internet saytının məzmununu yeniləmək.
- İnternet saytının işini və istifadəçi təcrübəsini optimallaşdırmaq üçün istifadəçilərin saytda rəylərini bildirməsinə imkan yaratmaq və saytın istifadəçi üçün rahatlığını testdən keçirmək.

Sistemin tətbiqinin bütün prosesi boyu aşağıdakılar vacibdir:

- Sistemin funksionallığını, təhlükəsizliyini və etibarlılığını təmin etmək üçün hər mərhələdə hərtərəfli test aparmaq və keyfiyyət təminatını həyata keçirmək.
- Mediatorlara, mediasiya təşkilatlarına və istifadəçilərə işlərin idarə edilməsi sistemindən səmərəli istifadə etmək üçün hərtərəfli təlim və dəstəyi təmin etmək.
- Rəyləri almaq və sistemdə ardıcıl təkmilləşdirmələr aparmaq üçün maraqlı tərəflərlə, o cümlədən Ədliyyə Nazirliyi, mediatorlar, mediasiya təşkilatları, təlimçilər və istifadəçilərlə əməkdaşlıq etmək.
- Sistemin hazırlanmasının və tətbiqinin bütün mərhələlərində məlumatların qorunması və məxfilik qaydalarına əməl olunmasını təmin etmək.

Bu mərhələli yanaşmaya riayət etməklə Azərbaycanda işlərin idarə edilməsi sisteminin tətbiqi təxmini 15-22 ay ərzində başa çatdırıla bilər ki, nəticədə mediasiya proseslərinin idarə edilməsinə, şəffaflığa şərait yaradılmasına və bütün maraqlı tərəflər üçün əlçatanlığın artırılmasına yönələn təsirli və effektiv sistem yaradılmış olacaq.

## 4.4. Azərbaycanda işlərin idarə edilməsinin hazırkı sistemi

### 4.4.1. Birinci həll yolu. İnternet saytı və məcburi ilkin mediasiya sessiyası üçün onlayn modul

İlkin mediasiya sessiyasının məcburiliyi əsasında yeni qəbul edilmiş mediasiyaya dair hüquqi bazanın tətbiqinə dəstək məqsədilə əvvəlki səylər çərçivəsində[9] Mediasiya Şurası üçün internet saytı və ilkin platforma hazırlanmışdır. Bu fəaliyyət Mediasiya Şurası tərəfindən mediatorların onlayn reyestrinin aparılmasından ötrü Mediasiya Şurası üçün internet saytının yaradılması ilə nəticələnmişdir. İnternet saytında həmçinin mediasiya, mediasiya təşkilatları və mediasiya üzrə təlim təşkilatları haqqında məlumatlar yer alır ki, ictimaiyyət bu məlumatlara daxil ola bilər.

Mediasiya qanunvericiliyi mediatorların reyestrinin aparılmasını tələb edir. Mediasiya Şurasının rolu mediatorların reyestrini idarə etməkdən və onu Şuranın internet saytında ictimaiyyətə təqdim etməkdən ibarətdir. Məcburi ilkin sessiya ilə bağlı yeni qanunvericilik müddəalarının yaxın vaxtlarda qüvvəyə minəcəyini nəzərə alaraq, məqsəd mediatorlar və

[9] Bax: Aİ tərəfindən maliyyələşdirilən "Mübahisələrin alternativ həlli mexanizmlərinin tətbiqində və əhaliyə hüquqi yardım xidmətlərinin göstərilməsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin institusional potensialının artırılması" layihəsi üzrə yekun hesabat, Çərçivə Müqaviləsi, SIEA 2018 – Lot 3.

mediasiya təşkilatları haqqında məlumatları Şuranın internet saytında ictimaiyyət üçün dərhal əlçatan edəcək həll yolu hazırlamaq idi.

Bundan əlavə, istifadəçilərin məcburi ilkin mediasiya sessiyası üçün müraciət etməsini və ictimaiyyətin real vaxt rejimində mediasiya statistikasına çıxışını asanlaşdırmaq üçün modul hazırlanmışdır. Beləliklə, bu modul mediasiya xidməti göstərənlərin işləri onlayn rejimində qəbul etməsinə imkan verir ki, bu da COVID dövründə xüsusilə faydalı olmuşdur. Məqsəd ondan ibarətdir ki, Mediasiya Şurası işlərin vəziyyətini izləyə, platformanı monitorinq edə və Azərbaycanda yeni məhkəməyəqədər həll modelinin yaradılmasının nəticələrini dərk edə bilsin.

Modul Azərbaycanda ilkin mediasiya sessiyasının tətbiqinin keyfiyyət və kəmiyyət baxımından təsirlərini, o cümlədən məhkəmə sisteminə təsirlərini dəqiq əks etdirən etibarlı məlumatlara real vaxt rejimində çıxışı təmin etmək məqsədilə hər bir mediasiya sorğusu (mediasiya üçün müraciət) üçün təyin edilən unikal nömrə əsasında işlənib hazırlanmışdır. Modulun əlavə uyğunlaşmalara və təkmilləşdirmələrə imkan verən inklüziv arxitekturaya malik olması nəzərdə tutulmuşdu ki, bu da, məsələn, mediatorlar və mediasiya təşkilatları üçün sonradan e-məhkəmə platformasına qoşula bilən işlərin idarə edilməsi sisteminin hazırlanmasını özündə ehtiva edirdi.

Mediasiya Şurasından bu birinci sistemin istifadəsi ilə bağlı alınan rəy mənfi olmuşdur ki, bunun da səbəbi aşağıda qısaca ümumiləşdirilib:

- Sistem dörd ay ərzində tətbiq edildi, lakin bir sıra problemlər yaratdı. Məsələn, işlər tez-tez sistemdən yox olur və onları izləməkdə çətinliklər yaranırdı. Mediatorlar yalnız sistemdəki iş nömrəsinə daxil ola bilirdilər ki, bu da natamam məlumatlar əldə edilməsinə səbəb olurdu.
- Altı aydan sonra portalın işinə cavabdehlik İT şirkəti tərəfindən təhvil verildi ki, nəticədə onun işi üçün ödəniş tələb olundu. Bu platformanın bağlanması zəruri idi, çünki mediatorlar sertifikat satmaq üçün ondan sui-istifadə edirdilər və sistemdə dəyişiklik edilmədən bu cür qanunsuz fəaliyyəti izləmək və dərhal dayandırmaq yolunda texniki çətinliklər yaranmışdı.
- İlk 4 aylıq dövr ərzində sistemdə lazımi qeydiyyat, hesabat və işlərin tarixçəsini izləmək imkanı yox idi. Mediatorlardan lazımi məlumatları əldə etmək çətin idi.
- Sistem ilkin olaraq onu hazırlamış şirkətdən alındıqdan sonra gov.az-a inteqrasiya edildi, lakin onun bir xidmət kimi funksionallığı effektiv deyildi.
- Təqdim etdikləri işləri sistemdə tapa bilməyən vəkillərlə mübahisələr yarandı. Birdən çox işə eyni iş nömrəsi verilirdi ki, bu da çaşqınlığa səbəb olurdu.
- Mediatorların sistemə girişi son nəticədə 2022-ci ilin yanvarında bağlandı. O, yalnız mediatorların reyestri üçün hələ də istifadə olunur.

### 4.4.2. İkinci həll yolu. Məcburi ilkin sessiya üçün onlayn modulun ləğvi və Google cədvəlləri vasitəsilə məlumatların monitorinqinə keçid

Məcburi ilkin sessiya üçün sertifikatların yaradılmasından ötrü birinci onlayn moduldan istifadədə yaranmış çətinlikləri nəzərə alaraq, Mediasiya Şurası sistemi ləğv etdi və statistika toplamaq üçün bulud texnologiyasına əsaslanan platforma yaratdı. Beləliklə, hər bir mediasiya təşkilatı ilə paylaşılan digər cədvəllərdən məlumat toplamaq üçün Google elektron cədvəli hazırlandı. Toplanmış məlumatlar mediasiyaya dair statistik informasiyaları konsolidasiya etmək üçün yalnız Mediasiya Şurasına əlçatan olan əsas Google elektron cədvəlində birləşdirildi.

19 iyun 2023-cü il tarixdə Avropa Şurasının komandası ilə təşkil olunmuş görüşdə Mediasiya Şurasının nümayəndələrinin göstərdiyi kimi, aşağıdakı məlumatlar toplanılır.

- A: Qeydiyyat tarixi
- B: İşin nömrəsi
- C: İddiaçının adı
- D: İkinci tərəfin adı
- E: Ərazi / Məkan
- F: Mübahisənin növü (ailə, əmək, kommersiya)
- G: Mübahisənin mediasiyaya verilməsi üçün hüquqi əsas (qanunvericiliyin tələbi, məhkəmə tərəfindən yönləndirilmə, könüllü müraciət, müqavilə)
- H: Mübahisənin səbəbləri (mübahisə predmeti, məsələn, ailə mübahisəsi/əmlak bölgüsü, təsnifləşdirilməyən səbəb – mediatorlar müvafiq sətirdə səbəbləri yaza bilərlər)
- I: Mediatorun adı (əl ilə daxil edilir)
- J: Mediatoru təşkilat seçib, yoxsa tərəflər
- K: Aşağıdakılardan ibarət nəticə (işlər başa çatdıqdan sonra):
    a. ***İlkin mediasiya sessiyasında iştirak etməmə haqqında arayış*** (ilkin sessiyaya gəlməmə; hansı tərəfin və nə üçün iştirak etmədiyi barədə məlumat göstərilmir).
    b. ***İlkin mediasiya sessiyasından sonra prosesə xitam verilməsi haqqında arayış*** (hər iki tərəf ilkin mediasiya sessiyasında iştirak edir və mediasiyaya başlamaq barədə razılığa gəlmirlər; başqa heç bir məlumat, məsələn, vəkillərin iştirakı və ya tərəflərin tam mediasiya prosesini davam etdirməmək qərarının səbəbi barədə informasiya göstərilmir).
    c. ***Prosesin xitamına/dayandırılmasına dair protokol*** (hansısa tərəf mediasiya üçün müraciət edib, amma ödənişlər edilməyib və ilkin sessiyada heç bir tərəf iştirak etməyib – belə hallar işlərin təxminən 6-8%-ni təşkil edir). Eyni sənəd prosesin aparıldığı, amma işin həll olunmadığı hallarda da verilir.
    d. ***Mediasiyanın tətbiqindən imtina/tətbiqini qəbul etməmə*** (xitam haqqında arayış verilmir – iş bağlanır) – səbəblə bağlı məlumat toplanmır, məsələn, mediasiya üçün müraciət etmiş tərəflə əlaqə saxlamaq olmur; vəkillər tez-tez müvəqqəti SİM kartlar alır və daha onlardan istifadə etmirlər, nəticədə qeydiyyata alınmış əlaqə məlumatları vasitəsilə onlarla əlaqə saxlamaq mümkün olmur – işlərin təxminən 10%-i.
    e. ***Barışıq sazişi*** (tərəflərin biri və ya hər ikisi mediasiya üçün müraciət edir, bildirişlər alır, ilkin sessiyada iştirak edir, mediasiya prosesini davam etdirir, mediasiya üçün üçtərəfli müqavilə imzalanır, yekunda barışıq sazişi hazırlanır və imzalanır.)
- L: Mediasiyanın bitmə tarixi

Ekspertlər qeyd ediblər ki, bu sistem nə ən uyğun, nə də dayanıqlıdır, çünki bir çox mediatorların kifayət qədər kompüter bacarıqları yoxdur (bəziləri hətta Mediasiya Şurası ilə paylaşılan Google cədvəllərində əvvəlcədən doldurulmuş məlumatları da siliblər). Bundan əlavə, bu hesabat sistemi avtomatlaşdırılmayıb və hələ də vaxt aparan manipulyasiyalar tələb edir.

### 4.4.3. Mediasiya Şurası yeni İİS hazırlayır

Mediasiya Şurasının nümayəndələri AŞ ekspertlərinin nəzərinə çatdırıblar ki, təsərrüfat subyektinin sponsorluğu şəklində maliyyə dəstəyi ilə İşlərin idarə edilməsinin yeni sistemi

hazırlanır. Texniki tapşırıqlar və ya ətraflı texniki spesifikasiyalar bu hesabatın müəllifləri ilə paylaşılmasa da, platformanın hazırkı versiyası 19 iyun 2023-cü il tarixində Mediasiya Şurasının nümayəndələri tərəfindən təşkil olunmuş görüşdə təqdim edilmişdir.

Platforma istifadəçilərin qeydiyyatla və qeydiyyatsız daxil ola biləcəyi elektron mediator kabinetini (e-kabinet) özündə ehtiva edəcək:

- Qeydiyyatsız:
    - Telefon, FIN kodu və doğum tarixi (telefon nömrəsini FIN kodu ilə birgə daxil etmək mümkündür). Doğum tarixi təhlükəsizlik səbəblərinə görə əlavə tələbdir.
- Qeydiyyatla (ASAN Login sisteminə inteqrasiya):
    - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi informasiya məkanını təmin etmişdir. ASAN və Mediasiya Şurası platformaları arasında miqrasiya prosesi baş verir. Onu yekunlaşdırdıqdan sonra Mediasiya Şurası hökumət sisteminə qoşula biləcək. Məqsəd mediatorlara insanların məlumatlarına çıxış imkanı verməkdir. Ekspertlər platformanın bu konkret xüsusiyyəti ilə bağlı narahatlıqlarını ifadə ediblər.

Platformada FIN kod və ya VÖEN əsasında müxtəlif növ istifadəçilər ola bilər:

- Ayrıca vətəndaş;
- Mediator;
- Mediasiya təşkilatı;
- Mediasiya Şurasının əməkdaşı;
- Vəkillər – platformaya daxil ola və müştərilərinin işlərini onların adından daxil edə bilərlər.

Mediasiya üçün şəxsin özünün müraciət etdiyini, müştərisinin adından vəkilin müraciət etdiyini, yaxud üçüncü tərəfin müraciət etdiyini (işçilərin adından işəgötürənin müraciət etməsi – əmək mediasiyası) mediasiya təşkilatı (Mediasiya Şurası!) biləcəkdir.

Mediasiyaya dəvətin skan edilmiş surəti təqdim edilməlidir – ekspertlər və Mediasiya Şurasının nümayəndələri dəvətin avtomatik yaradılması və onun rəqəmsal, kağızsız sistem üçün məntiqsiz olan çap və skan edilməsinin zəruriliyini müzakirə ediblər. Mediasiya Şurasının nümayəndələrinin sözlərinə görə, mövcud qanunvericilik mediasiyaya dəvətin elektron formada adi elektron poçt vasitəsilə göndərilməsinə imkan vermir.

Ölkədaxili missiyadan sonra Mediasiya Şurası AŞ komandası ilə platforma haqqında daha çox məlumatın əks olunduğu sənədi paylaşdı. Sənədə platformanın texniki spesifikasiyalarından daha çox tapşırıqların siyahısı və ekran görüntüləri daxil edilib.

Ekspertlərin əlavə şərhləri:

- Mediasiya Şurasının sisteminin hökumət sisteminə qoşulması və mediatorların vətəndaşların fərdi məlumatlarına və şirkətlərin məlumatlarına çıxış əldə etməsinin mümkünlüyü fərdi və ya digər konfidensial məlumatların qorunması ilə bağlı narahatlıq yaradır. Müraciət edən tərəflərin bəzi mediasiya ərizələrinin arxasında gizli səbəblər dayana bilər. Bəlkə müraciət edən tərəfin məqsədi cavabdeh tərəfin ünvanını öyrənməkdir? Burada əsas narahatlıq bir tərəfin fərdi məlumatlarının xüsusi icazə olmadan digər tərəflə paylaşılması ilə bağlıdır. (Bir nümunə ekspertlərdən birinin mediatorluğu ilə baş vermiş haldır ki, bu zaman cavabdeh tərəf əvvəlki zorakılıq tarixçəsinə görə ev ünvanının sorğu edən tərəflə paylaşılmasını istəməmişdir. Bu halda mediasiya müqaviləsinə həmin tərəfin ev ünvanı deyil, vəkillərinin ofis ünvanı daxil edilmişdir).

- Hər hansı işə aid fərdi məlumatın tərəflərdən, onların vəkillərindən, mediatordan və işin idarə olunması üçün təyin olunmuş şəxsdən savayı kənar şəxsə məlum olması ciddi narahatlıq mənbəyi olacaqdır. İş materiallarında fərdi məlumatlar, mühüm sənədlər, kommersiya sirləri və həssas informasiyalar yer ala bilər ki, bunların da səlahiyyətli olmayan şəxslər üçün əlçatan olması narahatlıqlar yarada və ya zərərə səbəb ola bilər. Hətta mediasiya təşkilatı daxilində digər mediatorların və ya Mediasiya Şurasının belə məlumatlara çıxışı olmamalıdır. Bu, təhlükəsizliyin mühüm pozuntusuna çevrilə bilər.

- Sonda qeyd etmək lazımdır ki, yeni sistem tərəfindən qeydə alınan mediasiya statistikasının effektiv olması üçün orada ən azı aşağıdakı məlumatlar yer almalıdır:
  - **İşə aid məlumat:**
    - İşin eyniləşdirmə nömrəsi və ya istinad qeydi (hər bir ölkə üçün unikaldır);
    - Mediasiya sessiyasının tarixi və yeri (onlayn, fiziki və ya hibrid formada);
    - Mübahisənin xarakteri və ya növü (məsələn, kommersiya, ailə, əmək mübahisəsi);
    - İşdə iştirak edən tərəflər (fiziki və ya hüquqi şəxslər, nümayəndəlik statusu) – fərdi məlumatlar olmadan;
    - İş üzrə təyin edilmiş mediator(lar) (adlar, səlahiyyətlər);
    - Mediasiya prosesinin müddəti.
  - **Mediasiya sessiyaları:**
    - Müraciət edən tərəf iştirak etdi (hə/yox); vəkil yardımı ilə (hə/yox);
    - İştirak etməyibsə, iştirak etməməsinin səbəbi (əgər məlumdursa);
    - Cavabdeh tərəf iştirak etdi (hə/yox); vəkil yardımı ilə (hə/yox);
    - İştirak etməyibsə, iştirak etməməsinin səbəbi (əgər məlumdursa);
    - Mediasiya seanslarının sayı və müddəti;
    - Mediasiya seanslarının nəticələri.
  - **İşin nəticələri:**
    - Barışıq sazişi əldə olundu (hə/yox);
    - Qərarın növü (məsələn, barışıq sazişi, qismən barışıq sazişi, ərizənin geri götürülməsi);
    - Həll olunmamış məsələlərin həll edilməsi (məsələn, arbitraja, məhkəməyə müraciət).
  - **Mediator haqqında məlumat:**
    - Mediatorun ixtisaslılığı və səlahiyyətləri
    - Mediatorluq etdiyi işlərin sayı;
    - Uğur faizi (barışıq sazişi ilə nəticələnən işlərin faizi);
    - İxtisaslaşma və ya təcrübə sahələri;
    - İştirak edən tərəflərin rəyləri və ya nöqteyi-nəzərləri.
  - **Tərəflərin rəyləri:**
    - Tərəflərin mediasiya prosesindən məmnunluğunun səviyyələri;
    - Mediatorun fəaliyyəti ilə bağlı rəy;
    - Təkmilləşdirmə üçün təkliflər.
  - **Demoqrafik məlumatlar:**
    - Tərəflərin cinsi, yaşı və digər müvafiq demoqrafik məlumatları;
    - Mediatorlarla bağlı müxtəliflik statistikası (məsələn, cins, etnik mənsubiyyət, dil).
  - **Tendensiyalar və təhlil:**
    - Mediatorlar və ya mediasiya təşkilatları tərəfindən baxılmış işlərin ümumi sayı;
    - Müxtəlif növ mübahisələrdə uğur faizləri;

        - Mediasiyanın orta müddəti;
        - Mediasiyanın nəticələrinin mübahisələrin digər həlli üsulları (məsələn, məhkəmə çəkişməsi, arbitraj) ilə müqayisəsi;
        - İqtisadi səmərəliliyin təhlili (mümkün olduqda).
    - **Keyfiyyət təminatı məlumatları:**
        - Keyfiyyətə nəzarət çərçivəsində yoxlamaların və ya auditlərin nəticələri;
        - Peşə standartlarına və etik prinsiplərə riayət edilməsi.

- Qeyd etmək vacibdir ki, toplanmış konkret məlumatlar Azərbaycanın qanunvericilik bazasından, mədəni kontekstindən və Mediasiya Şurasının məqsədlərindən asılı olaraq dəyişə bilər. Bu məlumatların müntəzəm olaraq toplanması və təhlili mediasiyanın effektivliyinə dair təsəvvür əldə etməyə imkan verəcək, mümkün təkmilləşdirmə sahələrini müəyyənləşdirəcək və mediator peşəsinin tənzimlənməsi və peşə fəaliyyətinə nəzarət məsələlərində faktlara əsaslanan qərarların qəbulunu dəstəkləyəcək.

# 5. MƏLUMATLARIN TOPLANMASININ VƏ MEDİASİYA SİSTEMİNİN RƏQƏMSALLAŞDIRILMASININ DAHA DA TƏKMİLLƏŞDİRİLMƏSİ ÜÇÜN TÖVSİYƏLƏR

Hazırkı hesabatda əsas diqqət mediasiya sisteminin rəqəmsallaşdırılmasına və statistik hesabatlılığa yönəlib. Buna görə də aşağıdakı tövsiyələr bu iki mövzu ilə məhdudlaşır və əsasən bu iki sahədə Azərbaycanın mediasiya sisteminin inkişafına yönəlib.

## 5.1. Mediasiya üçün hüquqi bazanın təkmilləşdirilməsi

Statistik hesabat, monitorinq və qiymətləndirmə təcrübələri ilə bağlı hüquqi bazaya dair tövsiyələr:

5.1.1. CEPEJ-in "Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika)" sənədinin müddəalarının "Mediasiya haqqında" Qanuna inteqrasiya edilməsini, qanun qüvvəli aktlara və/yaxud Mediasiya Şurasının fəaliyyət qaydalarına və ya statistika və monitorinq sisteminə dair normativ qərarlarına uyğunlaşdırılması və inteqrasiyasını, həmin İlkin cədvələ təcrübədə əməl olunacağına şərait yaradacaq aydın qaydaların müəyyən edilməsini nəzərdən keçirmək məsləhət görülür. Ekspertlər İlkin cədvəlin tətbiqinin müxtəlif mediasiya fəaliyyəti göstəriciləri üzrə beynəlxalq konsepsiyalara uyğunlaşdırılmasını, müvafiq məlumatların müqayisəsini və mediasiya üzrə KPI-lərin müəyyən edilməsi və hesablanmasının beynəlxalq səviyyədə tanınmış metodlara uyğunluğunu təmin etməyi ciddi surətdə tövsiyə edirlər. Mediasiya statistikasında əlavə göstəricilərin (İlkin cədvəldə sadalananlardan əlavə) monitorinqinin zəruriliyi ilə bağlı konstruktiv müzakirə aparılması və onların beynəlxalq səviyyədə tanınmış təcrübələrə uyğun hesablanması düsturlarının razılaşdırılması Mediasiya Şurasına və Azərbaycan Ədliyyə Nazirliyinə ciddi surətdə tövsiyə olunur;

5.1.2. Konfidensiallıq prinsipinə riayət edilməsi şərti ilə mediasiya təşkilatlarının və ayrı-ayrı mediatorların statistik hesabatlar verilməsi, müvafiq məlumatların düzgünlüyünün və vaxtında təqdim edilməsinin təmin edilməsi sahəsində funksiya və vəzifələri "Mediasiya haqqında" Qanunda, normativ aktlarda və ya Mediasiya Şurasının normativ qərarlarında daha dəqiq təsvir oluna bilər;

5.1.3. Statistik məlumatların toplanması və mediasiya sisteminin monitorinqi sahəsində Ədliyyə Nazirliyinin funksiyaları, o cümlədən Ədliyyə Nazirliyi və Mediasiya Şurasının fəaliyyətinin əlaqələndirilməsi “Mediasiya haqqında” Qanunla daha ətraflı şəkildə tənzimlənə bilər;

5.1.4. Mediasiya üzrə KPI-ləri əks etdirən yenilənmiş statistik məlumatları açıqlamaqla, o cümlədən internetdə dərc etməklə mediasiya sisteminin şəffaflığının artırılmasına dair müddəalar təkmilləşdirilə bilər. "Mediasiya haqqında" Qanunun hazırkı müddəaları (20.1.7, 20.1.8 və 20.1.15-ci maddələr) məlumatların açıqlanması üsullarını və onların geniş ictimaiyyət üçün əlçatanlığını müəyyən etmir. Mediasiya fəaliyyətinin göstəriciləri ilə bağlı konkret hansı məlumatların ictimaiyyətə açıqlanmasının zəruri olduğuna dair heç bir aydın qeyd yoxdur. Şəffaflığı və hesabatlılığın keyfiyyətini artırmaq üçün bu aspektlər dəqiqləşdirilə, mediasiya üzrə KPI-lərə dair yenilənmiş və əvvəlki dövrlərə aid məlumatlara ictimaiyyətin internet vasitəsilə asan və sərbəst çıxışı təmin edilə bilər.

5.1.5. Mediasiya Şurası bu sahədə siyasəti hazırlayan digər qurumlarla (Ədliyyə Nazirliyi də daxil olmaqla) və maraqlı tərəflərlə koordinasiyalı şəkildə statistik məlumatların toplanması işinin vahidliyini və sinxronlaşdırılmasını və onların etibarlılığını təmin

etmək üçün statistik hesabatlara dair aydın prosedur və qaydaları tərtib və təşviq etməlidir. Hesabatların verilməsinə dair aşağıdakıları nəzərdə tutan təlimatın Mediasiya Şurası tərəfindən hazırlanması tövsiyə olunur: hesabatda əks olunacaq konkret məlumatlar, məlumatların təqdim edilməli olduğu dəqiq vaxt, məlumatları kim təqdim etməlidir, konkret məlumatlar müəyyən hesabat dövrləri ilə necə əlaqələndirilməlidir. Ekspertlər həmin sənəddə monitorinq edilmiş konkret mediasiya fəaliyyəti göstəricilərinin anlayışlarını təsvir/izah etməyi və mediasiya üzrə KPI-lərin müəyyən edilməsi və hesablanması üzrə beynəlxalq təcrübəyə uyğun olaraq onların hesablanması düsturlarını tərtib etməyi tövsiyə edirlər.

Mediasiya sisteminin rəqəmsallaşdırılması ilə bağlı hüquqi bazaya dair tövsiyələr:

5.1.6. Mediasiya ilə bağlı sənədlərin (mediasiyaya başlamaq üçün müraciətlər, mediasiyaya dair müqavilələr, mediasiya vasitəsilə barışıq sazişləri, məcburi mediasiyanın nəticələrinə dair arayışlar və s.) və mediatorlar, tərəflər, onların nümayəndələri, mediasiya təşkilatları, Mediasiya Şurası və mediasiya ilə əlaqəli digər maraqlı tərəflər arasında məlumat/informasiya mübadiləsinin rəqəmsal formasını birbaşa leqallaşdıran "standart parametr rəqəmsal" (*digital by default*) konsepsiyası "Mediasiya haqqında" Qanuna daxil edilə bilər.

5.1.7. Onlayn mediasiya xidmətləri, o cümlədən videokonfrans vasitəsilə keçirilən mediasiya sessiyaları, əsas ilkin şərtlərinin və xüsusiyyətlərinin müəyyən edilməsi şərti ilə, "Mediasiya haqqında" Qanunda təşviq edilə bilər.

## 5.2. Monitorinq, qiymətləndirmə və hesabatlılıq təcrübələrinin təkmilləşdirilməsi

Aşağıdakılar məsləhət görülür:

5.2.1. Mediasiya Şurası, Ədliyyə Nazirliyi və mediasiya ilə əlaqəli digər əsas maraqlı tərəflər arasında koordinasiyanın gücləndirilməsi: (i) KPI-ların müəyyən edilməsi və "Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika)" sənədinin müddəalarının Azərbaycanın mediasiya sisteminə lazımi şəkildə uyğunlaşdırılması; (ii) etibarlı statistik məlumatların təqdim edilməsi, toplanması və ümumiləşdirilməsi prosedurları və təcrübələri üzrə razılığın əldə edilməsi (ən azı mediasiya sistemindən və məhkəmələrdən daxil olan mediasiya ilə bağlı məlumatların birləşdirilməsi üçün Mediasiya Şurasının və Ədliyyə Nazirliyinin əməkdaşlığının zəruri olduğu sahələrdə); (iii) mediasiya statistikasının dərci və yayılmasının formatları, tezliyi və mənbələrinin müəyyən edilməsi;

5.2.2. Mediasiya ilə bağlı toplanan məlumatlar və ictimaiyyətə açıqlanan statistik hesabatlar mediasiya üçün müraciətlərə baxılmasının son nəticələrini başa düşmək və uğursuz mediasiya proseslərinin səbəblərini müəyyən etmək üçün yetərli olmalıdır;

5.2.3. Statistik məlumatların toplanması, ümumiləşdirilməsi və statistik hesabatların yaradılması üçün texnologiyalardan mümkün qədər istifadə edilməlidir. Əl işi minimuma endirilməlidir.

## 5.3. İşlərin idarə edilməsi sisteminin gücləndirilməsi

Mediasiya Şurasının rəhbərliyi altında hazırlanan və barəsində çox məhdud məlumatın olduğu yeni İİS-in fornalaşdırılması ilə bağlı dəqiq tövsiyələr vermək olduqca çətindir. Onun texniki spesifikasiyaları, texniki dizaynı ekspertlərə təqdim edilməyib. Sahə missiyası zamanı hazırlanmada olan sistemin natamam olması səbəbindən sistemin funksional imkanlarının nümayişi çox məhdud həcmdə həyata keçirilib. Buna görə də, ekspertlər İİS-in

hazırlanmasının uğurla yerinə yetirilməsinə kömək edə biləcək daha ümumi xarakterli aşağıdakı tövsiyələri təqdim edə bilərlər:

5.3.1. 2021-ci ildə CEPEJ "Elektron məhkəmə sənədləri dövriyyəsi (e-sənəd dövriyyəsi) və məhkəmələrin rəqəmsallaşdırılması üzrə təlimatlar"ı qəbul etmişdir.[10] Bu təlimatlar mübahisələrin həllinin digər sahələrinə aid sistemlərin, məsələn, mediasiya işlərinin idarə edilməsi sistemlərinin layihələndirilməsi, yaradılması və saxlanılması üçün müvafiq dəyişikliklərlə istifadə edilə bilər;

5.3.2. Yeni İİS-in texniki spesifikasiyası sistemin əsas funksional imkanlarının təsviri ilə birlikdə hələ hazırlanmayıbsa və Mediasiya Şurası tərəfindən təsdiqlənməyibsə, sistemin layihələndirilməsini və proqramlaşdırılmasını bitirməzdən əvvəl bunu sistemin tərtibçisi və mediasiya təşkilatları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirməyi təklif edirik;

5.3.3. Mediasiya işlərinin idarə edilməsi sisteminin yaradılmasına ayrılan məhdud maliyyə resursları ilə əlaqədar olaraq, ilk növbədə bəzi İİS modullarının tətbiqi üçün prioritetləri müəyyən etməyi və birinci dərəcəli prioritet modulların uğurla tətbiqindən sonra sistemin daha da genişləndirilməsinə davam etməyi tövsiyə edirik. Prioritet kimi müəyyən edilməsini tövsiyə etdiyimiz modullar bunlardır: (i) mediatorların və mediasiya təşkilatlarının reyestri; (ii) statistik məlumatların toplanması və ictimai hesabatlılıq; (iii) mediasiya üçün rəqəmsal müraciətlər, mediasiya sənədlərinin elektron dövriyyəsi (e-sənəd dövriyyəsi) və tərəflərlə mediator arasında rəqəmsal əlaqələr; (iv) mediasiya ilə bağlı standartlaşdırılmış əsas elektron sənədlərin avtomatlaşdırılmış şəkildə yaradılması; (v) elektron sənədlərin rəqəmsal autentifikasiyası və rəqəmsal imzalanması. Digər funksiyalar sonrakı mərhələlərdə hazırlana və işə salına bilər;

5.3.4. Autentifikasiya və e-sənədlərin imzalanması məqsədləri üçün elektron imzaların istifadəsi yeni İİS-ə inteqrasiya edilməli və təşviq edilməlidir. Ehtiyac yaranarsa, Ədliyyə Nazirliyi elektron rəqəmsal imzadan bu cür istifadənin və gücləndirilmiş rəqəmsal imza ilə imzalanmış rəqəmsal sənədlərin bərabər qüvvəsinin leqallaşdırılması üçün qanunvericilikdə dəyişiklik edilməsini təklif etməlidir;

5.3.5. Tövsiyə edirik ki, mediasiya təşkilatlarının nümayəndələri, mediatorlar və mediasiya istifadəçilərinin məsləhətçisi kimi çıxış edən vəkillər yeni mediasiya İİS-nin hazırlanmasına və sınaqdan keçirilməsinə cəlb olunsunlar;

5.3.6. Məlumatların qorunması, "standart parametr rəqəmsal" (digital by default) tələblərinə, ayrı-seçkiliyin yolverilməzliyi, ədalətlilik, tərəflərin bərabərliyi prinsiplərinə və mübahisələrin həllinin rəqəmsal platformalarına tətbiq olunan digər əsas rəhbər prinsiplərə[11] mediasiya işlərinin idarə olunması üzrə yeni sistemin gələcək tərtibində və tətbiqində riayət edilməlidir.

## 5.4. Rəqəmsal infrastrukturun təkmilləşdirilməsi və Mediasiya Şurasına və mediasiya təşkilatlarına dəstək

5.4.1. Mediasiya işlərinin idarə edilməsinin yeni sistemini hazırlamaq və sistemin rəqəmsallaşdırılmasına başlamaq üçün Mediasiya Şurasının səy göstərməsi alqışlanmalıdır. Təəssüf ki, mediasiya sisteminin formalaşdırılmasının hazırkı kifayət qədər erkən mərhələsində Mediasiya Şurasının maliyyə resursları və inzibati imkanları hələ də məhduddur. Eyni sözlər Azərbaycanda yeni fenomen olan mediasiya təşkilatlarına da aiddir. Mediasiyanın rəqəmsallaşdırılması səylərinin və müvafiq nəticələrin davamlılığını təmin etmək üçün mediasiya işlərinin

[10] İnternetdə mövcuddur: https://rm.coe.int/cepej-2021-15-en-e-filing-guidelines-digitalisation-courts/1680a4cf87.

[11] "Elektron məhkəmə sənədləri dövriyyəsi (e-sənəd dövriyyəsi) və məhkəmələrin rəqəmsallaşdırılması üzrə təlimatlar", səh. 4-6.

idarə edilməsi sisteminin və digər rəqəmsal mediasiya infrastrukturunun (həm aparat, həm də proqram təminatı) hazırlanması və saxlanılması prosesinə yardımın, maliyyə və inzibati dəstəyin təmin edilməsini mərkəzi hökumətin öhdəsinə götürməsi tövsiyə olunur.

## 5.5. Fərdi mediatorların və mediasiya təşkilatlarının əməkdaşlarının davamlı peşəkar inkişafı

5.5.1. Yerlərdə keçirilən görüşlər zamanı məlum oldu ki, mediasiya işlərinin idarə edilməsinin yeni sisteminin potensial istifadəçilərinin rəqəmsal və texnoloji savadlılığının ümumi səviyyəsi o qədər də yüksək deyil. Ekspertlər müəyyən ediblər ki, kağız əsaslı sənədlərə və kommunikasiyaya həddindən artıq güvənilir. Digər tərəfdən, yeni İİS konkret tələbatlara uyğunlaşdırılan platforma kimi yaradılır, buna görə də onun fəaliyyəti üçün xüsusi təlimatlar və əməliyyat rejimi ola bilər. Mediasiya işlərinin idarə edilməsinin yeni sisteminin tətbiqi prosesində daha yaxşı nəticələr əldə etməkdən ötrü yeni İİS-in istifadəçiləri üçün mediasiya təcrübələrində müxtəlif proqram və texnologiyalardan (süni intellekt daxil olmaqla) ümumi istifadə ilə, habelə rəqəmsallaşdırma, e-imza və e-sənədlərlə bağlı təlimlərin təşkili tövsiyə olunur.

5.5.2. Mediasiyaya dair statistik məlumatların təqdim edilməsi, ümumiləşdirilməsi və mediasiya üzrə əsas fəaliyyət göstəricilərinin (KPI) daha yaxşı başa düşülməsi ilə bağlı daha yaxşı nəticələrə nail olmaqdan ötrü hesabatların tərtibi ilə məşğul olan şəxslər və mediatorlar üçün məlumatların toplanması, idarə edilməsi, təhlili və hesabatların tərtibi sahəsində təlimlərin keçirilməsi də məsləhət görülür.

5.5.3. Belə mövzular mediatorlar və mediasiya təşkilatları üçün davamlı peşəkar inkişaf proqramlarına daxil edilməli, bu proqramlar biliklərin yenilənməsi və yeni inkişaf prosesləri barədə məlumatlı olmaq üçün vaxtaşırı həyata keçirilməlidir.

## 5.6. Onlayn mediasiya xidmətlərinin təşviqi və genişləndirilməsi

5.6.1. Təkcə mediasiya işlərinin idarə edilməsi üzrə yeni sistemdən deyil, həm də mediasiya proseslərini daha səmərəli idarə etməyə kömək edə biləcək digər mövcud texnologiyalardan istifadəni təşviq etmək tövsiyə olunur. Konkret olaraq, geniş yayılmış platformalar vasitəsilə videokonfransdan istifadə təşviq edilə bilər. Vaxtın və xərclərin azaldılması üçün e-poçt, WhatsApp, Viber və digər məşhur söhbətləşmə kanalları vasitəsilə ünsiyyət imkanları da sistemə inteqrasiya oluna bilər.

5.6.2. Mediasiya Şurası müvafiq təcrübələrin uzlaşdırılmasına rəhbərlik edə və mediasiyanın konfidensiallığı, məlumatların qorunması və digər prinsiplərə uyğun olaraq mediasiyada belə alətlərdən istifadəyə dair tövsiyə və ya təlimatlar verə bilər.[12]

---

[12] 2021-ci ildə Avropa Şurası "Mülki və inzibati məhkəmə proseslərində mübahisələrin onlayn həlli mexanizmlərinə dair" Avropa Şurası Nazirlər Komitəsinin rəhbər prinsiplərini dərc etmiş (internetdə mövcuddur: https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectId=0900001680a2cf96) və həmin il CEPEJ "Məhkəmə proseslərində videokonfransın istifadəsinə dair rəhbər prinsiplər" qəbul etmişdir (internetdə mövcuddur: https://rm.coe.int/cepej-2021-4-guidelines-videoconference-en/1680a2c2f4). Bu rəhbər prinsiplərin hər ikisi həm də mediasiya prosesində onlayn texnologiyaların istifadəsinə müvafiq dəyişikliklərlə tətbiq oluna bilər. Biz təklif edirik ki, Azərbaycan kontekstində hər hansı yeni qayda və ya tövsiyələr hazırlanarkən onlar nəzərə alınsın. Mübahisələrin onlayn alternativ həlli (MAH) ilə bağlı CEPEJ tərəfindən 2023-cü ilin dekabrında qəbul edilməsi nəzərdə tutulan yeni rəhbər prinsiplər hazırlanır. Qəbul edildikdən sonra onlarla tanış olmağı və gələcəkdə Azərbaycanda tətbiqini nəzərdən keçirməyi tövsiyə edirik.

## BİBLİOQRAFİYA


- 29 mart 2019-cu ildə Azərbaycan Milli Məclisi tərəfindən qəbul edilmiş "Mediasiya haqqında" Azərbaycan Respublikasının 1555-VQ nömrəli Qanunu, azərbaycan dilində burada mövcuddur: https://e-qanun.az/framework/41828, 5 iyul 2023-cü il tarixinə olan məlumat,
- Avropa Komissiyası: Mülki və kommersiya işlərində mediasiyanın müəyyən aspektlərinə dair Avropa Parlamentinin və Aİ Şurasının 2008/52/EC Direktivinin tətbiqi ilə bağlı Avropa Parlamentinə, Aİ Şurasına və Avropa İqtisadi və Sosial Komitəsinə Komissiyanın hesabatı, internetdə mövcuddur: https://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=COM%3A2016%3A542%3AFIN,
- Aİ tərəfindən maliyyələşdirilən “Mübahisələrin alternativ həlli mexanizmlərinin tətbiqində və əhaliyə hüquqi yardım xidmətlərinin göstərilməsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin institusional potensialının artırılması” layihəsi üzrə yekun hesabat, Çərçivə Müqaviləsi, SIEA 2018 – Lot 3,
- "Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti” və ona dair İzahedici Memorandum, internetdə mövcuddur: https://rm.coe.int/cepej-2019-9-en-handbook/1680951928, səh. 78,
- Ailə, mülki, cinayət və inzibati işlərdə Avropa Şurasının mövcud tövsiyələrinin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, internetdə mövcuddur: https://rm.coe.int/16807475b6, https://rm.coe.int/1680747759 və https://rm.coe.int/1680747683,
- CEPEJ, Mediasiya üzrə əsas fəaliyyət göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika), internetdə mövcuddur: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 40-49,
- CEPEJ, Elektron məhkəmə sənədləri dövriyyəsi (e-sənəd dövriyyəsi) və məhkəmələrin rəqəmsallaşdırılması üzrə təlimatlar, internetdə mövcuddur: https://rm.coe.int/cepej-2021-15-en-e-filing-guidelines-digitalisation-courts/1680a4cf87,
- "Mülki və inzibati məhkəmə proseslərində mübahisələrin onlayn həlli mexanizmlərinə dair" Avropa Şurası Nazirlər Komitəsinin rəhbər prinsipləri, internetdə mövcuddur: https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectId=0900001680a2cf96,
- CEPEJ, Məhkəmə proseslərində videokonfransın istifadəsinə dair rəhbər prinsiplər, internetdə mövcuddur: https://rm.coe.int/cepej-2021-4-guidelines-videoconference-en/1680a2c2f4.

# ƏLAVƏ I: “Azərbaycanda mediasiya sisteminin rəqəmsallaşdırılması” üzrə 19-21 iyun 2023-cü ildə həyata keçirilmiş missiyanın iştirakçıları və gündəliyi

Avropa Şurasının ekspertləri:

1. **Rimantas Simaitis** (Beynəlxalq mediasiya eksperti, Litva)
2. **Konstantin Adi Qavrila** (Beynəlxalq mediasiya eksperti, Rumıniya)

Avropa Şurasının əməkdaşları:

3. **Leonid Antohi** (Layihə koordinatoru, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ), Avropa Şurası)
4. **Vəfa Rövşənova** (Layihə üzrə məsul şəxs, CEPEJ, Avropa Şurasının Bakıdakı ofisi)

Görüşlərin xülasəsi:

1. Bazar ertəsi, 19 iyun 2023-cü il

   a. **Mediasiya Şurası ilə görüş**

Məkan: Mediasiya Şurası (Sport Plaza)

İştirakçılar:

*Cənab Nadir Adilov, Mediasiya Şurasının sədri*

*Xanım Fidan Ələsgərova, İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri*

*Cənab Kamil Lətifov, Mediatorlar və mediasiya təşkilatları ilə iş departamentinin rəhbəri*

*Cənab Ziyad Məmmədov, İnnovasiyalar departamentinin rəhbəri*

*Cənab Ağamir Aslanlı, Baş proqramçı*

   b. **Bakı 14 saylı mediasiya təşkilatı ilə görüş**

Məkan: Green Plaza, 4-cü mərtəbə, ofis 404

İştirakçılar:

*Cənab Gəray Məmmədtağıyev, Bakı 14 saylı mediasiya təşkilatının rəhbəri*

2. Çərşənbə axşamı, 20 iyun 2023-cü il

   a. **9 saylı Bakı mediasiya təşkilatı ilə görüş**

Məkan: Bakı 9 saylı mediasiya təşkilatı, Bayıl qəsəbəsi

İştirakçılar:

*Xanım Leyla Nəsibova, Bakı 9 saylı mediasiya təşkilatının rəhbəri*

*Cənab Yunis Nəsibov, mediator*

*Cənab Fərhad Mehdiyev, mediator*

*Xanım Səbirə Şıxəliyeva, mediator*

*Cənab İlham Fərzəliyev, mediator*

*Cənab Arzu Cabbar, köməkçi*

**b. Ədliyyə Nazirliyi ilə görüş**

Məkan: Ədliyyə Nazirliyi

İştirakçılar:

*Cənab İlqar Məmmədov, Ədliyyə sahəsində xidmətlər baş idarəsinin rəisi*

*Cənab Ağakərim Səmədzadə, İnformasiya texnologiyaları və innovasiyalar idarəsinin rəisi*

*Xanım Leyla Bərxudarzadə, Ədliyyə sahəsində xidmətlər baş idarəsinin qrup rəhbəri*

*Cənab Aslan Hacıyev, Qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin rəisi*

**c. Sumqayıt 1 saylı mediasiya təşkilatı ilə görüş**

Məkan: Mərkəz Plaza, Sumqayıt şəhəri

İştirakçılar:

*Cənab Etibar Həsənov, Sumqayıt 1 saylı mediasiya təşkilatının rəhbəri*

*Xanım Nərmin İsayeva, dəftərxana işçisi*

**d. İşgüzar nahar / Koordinasiya görüşü**

İştirakçılar:

*Cənab Leonardo D’Urso, Dünya Bankının mediasiya üzrə beynəlxalq eksperti*